# AZAL Naxçıvana uçuşlar üçün Ermənistana 112 min avro ödəyib



**AZAL 2022-ci ildə Naxçıvana uçuşlar üçün Ermənistana 112 min avro ödəyib.**

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Ermənistanın Mülki Aviasiya Komitəsi məlumat yayıb.

Bildirilib ki, Azərbaycanın milli aviadaşıyıcısı bu məbləği yanvarın 1-dən noyabrın 30-dək Ermənistanın hava məkanından keçən uçuşlar üçün ödəyib.

Mülki Aviasiya Komitəsi tərəfindən Laçın-Xankəndi yolundakı vəziyyətlə əlaqədar olaraq Azərbaycan təyyarələri üçün öz hava məkanını bağlamağı planlaşdırıb-planlaşdırmadığına da münasibət bildirilib. Qeyd olunub ki, bütün beynəlxalq uçuşlar əvvəlcədən nəzərdə tutulmuş plan əsasında həyata keçirilir.



## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadıldı

**Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb.**

Bu barədə Nazirlər Kabinetinin qərarında bildirilib. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 mart saat 06:00-dək uzadılıb.


№ 235 (5756), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 dekabr 2022-ci il (cümə)




# Naxçıvan əhalisini sevindirəcək xəbər

## Monopoliyaya son qoyulur və yeni şirkətlər artıq rəqabətə hazırlaşırlar

**Naxçıvanda monopoliyaya son qoyulur və yeni şirkətlər artıq rəqabətə hazırlaşırlar.**

Bu barədə hazırda Naxçıvanda olan Baku TV-nin əməkdaşı Tural Müseyibov məlumat verib.

O qeyd edib ki, Naxçıvan daxilində yerləşən, Vasif Talıbovun ailə üzvlərinin olduğu bildirilən bir sıra böyük obyektlərin, hotellərin, restoranların işçiləri çaşqınlıq içərisindədirlər.

T.Müseyibov qeyd edib ki, Naxçıvanda hər bir sahibkarın sadəcə bir işlə məşğul olmağına icazə verilirdi. Onun sözlərinə görə, indiyədək şəhər ərazisində yalnız "sarı taksi"lər fəaliyyət göstərib:

"Digər şəxslərin fərdi olaraq taksi fəaliyyəti ilə məşğul olması qadağan idi. Şirkət üzvləri rüsum ödədikləri halda avtomobilin bütün xərclərinin, məsuliyyətinin öz üzərlərində olduğundan şikayətçidirlər. Onlar bu şirkətin Vasif Talıbovun oğullarından birinə məxsus olduğunu qeyd ediblər".



## Mədəniyyət naziri vəzifəsinin müvəqqəti icrası Adil Kərimliyə həvalə edilib

**Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamla, Azərbaycan Respublikasının mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Adil Qabil oğlu Kərimliyə həvalə edilib.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Naxçıvan dəyişəcək

## Prezident səlahiyyətli nümayəndəsinə görüləcək işlərlə bağlı mühüm tapşırıqlar verib



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilib.**

Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb. Sərəncama əsasən, Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib.

Səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Prezidenti təmsil edən vəzifəli şəxs olacaq və dövlət başçısının müəyyən etdiyi səlahiyyətləri icra edəcək. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirəcəklər. Sərəncamdan sonra dövlət başçısı İlham Əliyev səlahiyyətli nümayəndəsini qəbul edib və ona müvafiq tapşırıqları verib.

(səh.2)

## Putin: "Rusiya Ukraynadakı münaqişəyə son qoymağa çalışacaq"



**Rusiya Ukraynadakı münaqişəyə son qoymağa çalışacaq və nə qədər tez olsa, bir o qədər yaxşıdır.**

"Report"un Rusiya bürosunun məlumatına görə, bunu Rusiya Prezidenti Vladimir Putin Dövlət Şurasının iclasının yekunlarına dair mətbuat konfransında deyib.

**Putin Moskvanın Kiyevlə danışıqlardan imtina etmədiyini də qeyd edib:** "Rusiya heç vaxt Ukrayna ilə danışıqlardan imtina etməyib. Dialoqa başlamayan Kiyev olub".

Rusiya lideri bütün silahlı münaqişələrin danışıqlarla bitdiyini vurğulayıb və belə qənaətə gəlib ki, Kiyev bunu nə qədər tez başa düşsə, bir o qədər yaxşıdır.

# ABŞ-nin əli Volodimir Zelenskinin çiynindədir

## Ukrayna Prezidenti Qərbdən güclü silah almaqla, döyüş əməliyyatlarının miqyasını genişləndirməyə çalışır





**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya ilə savaş başlayandan sonra ilk dəfə xaricə səfər edib.**

ABŞ-yə səfər edən Zelenski amerikalı həmkarı Cozef Bayden və Nümayəndələr Palatasının spikeri Nensi Pelosi ilə görüşüb. Zelenski Konqresdə çıxış da edib. Dünya mediası kritik səfərin arxasındakı gizli əməliyyatdan yazıb.

(səh.7)



## AZAL endirimli biletləri satışa çıxardı, sistem çökdü

**Dünən AZAL 2023-cü ilin yay cədvəli çərçivəsində 9 istiqamət üzrə 29 avroya aviabiletlərin satışa çıxarılacağını elan edib.**

Bu barədə şirkətin sosial şəbəkə hesablarında və rəsmi saytında məlumat paylaşılıb. Bildirilib ki, martın 26-dan oktyabrın 29-dək olacaq uçuşların hava yollarının aşağıbüdcəli "Buta Airways" aviaşirkəti tərəfindən minimal "Büdcə" tarifi ilə həyata keçiriləcək və 10 000 biletin onlayn satışı planlaşdırılacaq.

Bu gün (dünən) saat 16:00-da biletlər satışa çıxarılmalı olsa da, qeyd olunan saatdan hətta bir neçə dəqiqə əvvəldən etibarən saytın onlayn satış bölməsi işləməyib.

(səh.7)

# 3 nəfər ölüb

## Son sutkada 81 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 81 yeni yoluxma faktı qeydə alınıb, 107 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 825 737 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 815 141 nəfər müalicə olunaraq sağalıb, hazırda 594 aktiv xəstə var. Bu günə qədər 10 002 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 100, bu günə qədər isə ümumilikdə 7 415 031 test icra olunub.*

## Ələkrəm Hümbətov vəfat edib



**Ələkrəm Hümbətov vəfat edib. APA xəbər verir ki, bu barədə Niderlandda yaşayan azərbaycanlılar bildirib.**

Ələkrəm Hümbətov yaşadığı Haaqa şəhərində 74 yaşında vəfat edib.

Qeyd edək ki, Ələkrəm Hümbətov 1948-ci ildə Lerikdə anadan olub. Ələkrəm Hümbətov 1993-cü ildə Azərbaycanın cənub zonasında qondarma "Talış-Muğan Respublikası" elan edib. O, bir müddət həbsdə qaldıqdan sonra vətəndaşlıqdan məhrum edilərək ölkədən deportasiya olunub.

*Ələkrəm Hümbətov 2004-cu ildən etibarən Niderlandda yaşayırdı. O, Ermənistana səfər etmişdi.*



## Demək olar ki, Azərbaycanda hər kəs virusla təmasda oldu

### Çindəki yoluxma sayının yüksək artımı bizə ciddi təsir göstərməyəcək

(səh.3)



## "30 ildir Xankəndi adı çəkiləndə ürəyim titrəyir"

Həvva Məmmədova: "Müəllim kimi mən də kooperativ mənzil aldım, təmir etdirdiyim mənzilə köçüb yaşaya bilmədim"

(səh.5)



# Naxçıvan dəyişəcək

## Prezident səlahiyyətli nümayəndəsinə görüləcək işlərlə bağlı mühüm tapşırıqlar verib

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilib. Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb. Sərəncama əsasən, Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib.**

Səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Prezidenti təmsil edən vəzifəli şəxs olacaq və dövlət başçısının müəyyən etdiyi səlahiyyətləri icra edəcək. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirəcəklər. Sərəncamdan sonra dövlət başçısı İlham Əliyev səlahiyyətli nümayəndəsini qəbul edib və ona müvafiq tapşırıqlarını verib. Qəbulda Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi və digər istiqamətlərdə görülən işlər qeyd olunub. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb. Prezident tapşırıq verib ki, səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin. Fuad Nəcəfli ona göstərilən yüksək etimada görə dövlətimizin başçısına təşəkkürünü bildirib. Prezidenti əmin edib ki, bütün fəaliyyət

> "Fuad Nəcəfli ona göstərilən bu yüksək etimadı layiqincə doğruldacaq"

dövlətimizin başçısının siyasəti üzərində aparılacaq. Ölkə miqyasında həyata keçirilən genişmiqyaslı islahatların Naxçıvan Muxtar Respublikasında da təmin edilməsi işində səylərini əsirgəməyəcək. Xatırladaq ki, ötən gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qapalı iclası keçirilib və Vasif Talıbovun istefası qəbul olunub. Artıq bir neçə müddətdir ki, Naxçıvanın müxtəlif qurumlarında maliyyə yoxlamaları həyata keçirilməkdədir. Dövlət Təhlükəsizlik Xidmətinin apardığı əməliyyatlar zamanı dəyəri 100 milyonlarla ölçülən korrupsiya faktları aşkarlanıb, həbslər həyata keçirilib. Bundan sonra Naxçıvanda idarəetmə ilə bağlı islahatların zəruriliyi və bölgənin statusunun ləğvi gündəmə gətirilmişdi.

**Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü bildirib ki, Prezidentin Naxçıvana təyin olunan səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kolanı kənd məktəbinin layiqli yetirmələrindəndir. E.Şükürlü deyib ki, o, çox gözəl, olduqca tərbiyəli bir ailədə doğulub, böyüyüb:** "Təmiz və dürüst, hər hansı siyasi oyunlarda iştirak etməyən, adı hər hansı rüşvət və korrupsiya qalmaqallarında hallanmayan yüksək ixtisaslı bacarıqlı kadrdır. Zəngin daxili mədəniyyəti, kübar davranışlarıyla həmişə seçilib, fərqlənib. Əminəm ki, Fuad Nəcəfli ona göstərilən bu yüksək etimadı layiqincə doğruldacaq. Həmişəki nümunəvi davranışları, xalqa canıyananlığı, şəffaf və dürüst fəaliyyəti ilə dogma kəndimiz Kolanının, rayonumuz Şahbuzun və bütövlükdə Naxçıvanın əzəmətli adına hörmət gətirən parlaq simalardan biri olacaq. Bu təyinat cəmiyyətə həm də o mesajdır ki, Azərbaycan dövlətçiliyinin beşiyi sayılan Naxçıvanımızın onun həmişəki əzəməti və qüdrətli adını batıran idbar sifətlilərdən, mafiyalaşmış tayfaklan sistemindən də, nəhayət ki, birdəfəlik qurtulması prosesinə başlanacaq. Fuad Nəcəfli olduqca çətin, ağır, ancaq həm də şərəfli bir missiya gözləyir. O, yaxşı anlayır ki, xalqa yaxın olduqca, xalq da dağ olub onun arxasında duracaq, onu bütün çətinliklərdən və təzyiqlərdən qoruyacaq!

Onu təbrik edir, bütün Naxçıvan camaatı üçün "Xeyirli, uğurlu olsun!" deyirəm".

**İsmayıl**

# "Qazaxıstanda Sizi etibarlı dost kimi tanıyırlar"

## Kasım-Jomart Tokayev Azərbaycan Prezidentini təbrik edib



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

*Məktubda deyilir:*

"Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Güclü və gündən-günə firavanlaşan dövlət qurulması, əhalinin rifahının və ölkənin beynəlxalq arenada nüfuzunun artmasının təmin edilməsində Azərbaycanın sanballı uğurları Sizin Vətənin mənafelərinə sədaqətli xidmətinizin, uzaqgörən siyasətinizin və dövlət başçısı vəzifəsində şəksiz liderliyinizin əyani sübutudur.

Qazaxıstanda Sizi etibarlı dost və Qazaxıstan-Azərbaycan münasibətlərinin daha da dərinləşməsinə səmimi yanaşan görkəmli siyasi xadim kimi tanıyırlar.

Əminəm ki, birgə səylərimiz sayəsində biz strateji tərəfdaşlığımızı və müttəfiqliyimizi daha da möhkəmləndirərək ikitərəfli əməkdaşlığı yeni zirvələrə yüksəltməyə nail olacağıq.

Hörmətli İlham Heydər oğlu, Sizə qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar və yeni-yeni nailiyyətlər arzu edirəm".

# Türkmənistan dövlət başçısı Prezident İlham Əliyevi təbrik edib



**Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

*Təbrik məktubunda deyilir:*

"Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə bu gün dinamik inkişaf yolunda inamla irəliləyir, cəmiyyət həyatının bütün sahələrində sanballı uğurlar qazanır və dünyada nüfuzunu ardıcıl surətdə möhkəmləndirir.

Azərbaycan Respublikası ilə Türkmənistanın çoxşaxəli tərəfdaşlığının indiki səviyyəsini yüksək qiymətləndirərək dövlətlərarası münasibətlərin inkişafına Sizin şəxsi diqqətinizi və böyük töhfənizi xüsusi qeyd etmək istərdim.

Sizinlə bu yaxınlarda "Avaza" milli turizm zonasında Türkmənistan-Azərbaycan-Türkiyə Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində görüşümüzü xoş təəssüratlarla xatırlayıram. Həmin görüşdə tərəflərin ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda qarşılıqlı fəaliyyətin durmadan genişləndirilməsinə və möhkəmləndirilməsinə sadiqliyi bir daha təsdiqləndi.

Əminəm ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlıq xalqlarımızın rifahı naminə dostluq və mehriban qonşuluğun ən yaxşı ənənələri əsasında bundan sonra da uğurla inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ailə səadəti, qardaş Azərbaycan xalqına bundan sonra da sülh, tərəqqi və firavanlıq arzu edirəm".



# Hikmət Hacıyev Baydenin müşaviri ilə danışıb

## Azərbaycan-Ermənistan sülh müqaviləsi üzrə danışıqlar müzakirə olunub

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan telefon danışığı aparıb.**

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında paylaşım edib.

"Biz Azərbaycan-Ermənistan arasında ikitərəfli əlaqələri, regional təhlükəsizlik məsələlərini, normallaşma və sülh müqaviləsi üzrə danışıqları nəzərdən keçirdik. Azərbaycanın regional sülh gündəmini irəli aparmaq əzmində olduğunu bildirdim", - deyə paylaşımda qeyd olunub.

# Makron açıqlama verib

## Aİ Azərbaycanın da təhlükəsizliyini zəmanətə alacaq yeni arxitektura haqda düşünməlidir



**Avropa İttifaqı (Aİ) Ukrayna ilə yanaşı, Azərbaycan, Gürcüstan, Moldova və Ermənistanın təhlükəsizlik və sabitliyini zəmanət altına alacaq yeni arxitektura haqda düşünməlidir.**

APA xəbər verir ki, bunu Fransa Prezidenti Emmanuel Makron "Wall Street Journal"a açıqlamasında deyib.

"Biz ilk növbədə Ukrayna, eyni zamanda Moldova, Ermənistan, Azərbaycan və Gürcüstanın təhlükəsizlik və sabitliyini zəmanət altına alan təhlükəsizlik və sabitlik arxitekturası barəsində düşünməliyik. Bu sual gələcəkdə Belarusla bağlı da verilə bilər", Makron qeyd edib.

O əlavə edib ki, Avropa özünü qorumaq iqtidarında olmalıdır.

"Avropanın özünü qorumasına ehtiyac var. Avropa ABŞ-dan texnoloji və bacarıq avtonomluğunu qazanmalı və NATO daxilində həqiqi Avropa sütunu yaratmalıdır. Bu alternativ bir layihə deyil", - Fransa lideri bildirib.

# Ağ Ev: Rusiya istək göstərərsə Bayden Putin görüşü baş tutacaq



**Rusiya danışıqlarda ciddi iradə göstərərsə Co Bayden Vladimir Putinlə görüşməyə hazırdır.**

APA xəbər verir ki, bu barədə Ağ evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bildirib.

"Siz prezidentin Fransa lideri Emmanuel Makronla görüşdə dediyini eşitdiniz. Əgər Putin ciddi istək nümayiş etdirsə prezident mütləq onunla görüşməyə hazır olacaq", - deyə Kirbi bildirib.

# Kremlin açıqlamaları İrəvanı qane etmədi

## "Vardanyan gələcəkdə Paşinyanın yerinə alternativ kimi hazırlanan adamdır"

**Rusiya, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin bu gün sülh müqaviləsinin hazırlanması ilə bağlı görüşü planlaşdırılırdı, lakin İrəvan iştirakdan imtina edib. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.**



Rusiya XİN Ermənistanın görüşdən imtinası ilə bağlı təfərrüatı açıqlamayıb.

Açıqlamanın ardınca isə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Nazirlər bölgədə və Laçın yolu ətrafında cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Ceyhun Bayramov Azərbaycan tərəfinin Laçın yolunda öhdəliklərə uyğun olaraq vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verdiyini və Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının, sülhməramlı kontingentin avtomobillərinin və digər nəqliyyat vasitələrinin hərəkəti barədə videolardan göründüyü kimi yolun açıq olduğunu diqqətə çatdırıb.

Bununla yanaşı, azərbaycanlı aktivistlərin etiraz aksiyasının Azərbaycan ərazilərində ermənilərin qeyri-qanuni iqtisadi fəaliyyətinə qarşı həyata keçirildiyi və hərbi təxribatların qarşısının alınması barədə etirazçıların tələblərinin yerinə yetirilməsinin vacib olduğu vurğulanıb

**Məsələni "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli söyləyib ki, rəsmi Moskvanın verdiyi açıqlamalar İrəvanı qane etməyib:** "Bu gün Paşinyanın sülhlə bağlı mövqeyi elan olundu. Biz isə dərhal hesablama apardıq ki, onun öz düsturu var. Bu düstur sülhün bağlanmaması üçün hesablanıb. Yəni burada Qarabağ məsələsi, kommunikasiyaların açılması, Zəngəzur dəhlizi və 10 noyabr razılaşmasının yerinə yetirilməyən müddəaları yer almır. Belə bir halda isə Azərbaycan təklifi qəbul edə bilməz.

Ortada həm Ermənistanın xahişi ilə BMT-də müzakirəyə çıxarılan məsələ, həm də müəyyən bir görüşün planlaşdırılması var. Digər tərəfdən Paşinyan beynəlxalq birlikdə, guya, "biz sülh istəyirik, amma Azərbaycan tərəfi istəmir" fonu yaratmağa çalışır. Açığı, ucuz şou yaratmaqla məşğuldurlar.

Paşinyan üçün bu şounu yaradan bir çox faktorlar yer alır. Biz bunu təkcə Qərblə bağlaya bilmərik. Eləcə də XİN başçılarının görüşünün baş tutmasına bu kontekstdən baxmaq lazımdır.

Ümumiyyətlə, Paşinyanın mövqeyinin açıqlanmasının ardından Azərbaycanın görüşə gəlmək istəyi və Rusiyanın Laçın yolu ilə bağlı verdiyi açıqlamalar İrəvanı qane etmədi. Kreml isə ortada iki gediş etdi. Birincisi, görüş ərəfəsində sülhməramlılarla bağlı məsələni gündəmə gətirdi. İkincisi, Vardanyanı Rusiya vətəndaşlığından çıxartdı və bir proyekt kimi onun Qarabağa göndərilməsini rəsmiləşdirdi.

Ona görə də Ermənistanın bundan imtina etməsi təbiidir. Çünki Vardanyan gələcəkdə Paşinyanın yerinə alternativ kimi hazırlanan adamdır".

**Nihat Müzəffər**



# Saakaşvilinin məhkəməsi növbəti dəfə təxirə salınıb

## Hakim bildirib ki, iclasların gündəlik keçirilməsi mümkün deyil

**Gürcüstanın həbsdə olan sabiq Prezidenti Mixeil Saakaşvilinin məhkəmə prosesi təxirə salınıb.**

APA-nın Gürcüstan bürosu xəbər verir ki, Tbilisi Şəhər Məhkəməsində keçiriləcək iclas 29 dekabr saat 11-ə təyin edilib.

Saakaşvilinin vəkili Şalva Xaçapuridze bildirib ki, müvəkkilinin sağlamlıq vəziyyəti pisdir və getdikcə ağırlaşır, ona görə də dinləmələr gündəlik keçirilməlidir.

Lakin, hakim Giorgi Arveladze məhkəmə iclaslarının gündəlik keçirilməsinin mümkün olmadığını bildirib. O, yekun qərarın bir və ya iki dinləmə nəticəsində veriləcəyinin gözlənilməməli olduğunu vurğulayıb.

Bu günkü iclasda Saakaşvilini müayinə edən ekspertlər dinlənilib. Növbəti iclasda isə şahidlərin dinləniləcəyi bildirilib.

*Qeyd edək ki, Gürcüstanın üçüncü Prezidenti Mixeil Saakaşvili 2021-ci ilin sentyabr ayının sonunda Gürcüstana qayıdıb. Tbilisidə qaldığı mənzildə saxlanılan sabiq Prezidentə 6 il həbs cəzası verilib.*




# Paşinyanın sülh müqaviləsi ilə bağlı fikirləri dəyişkəndir

## Azərbaycanın irəli sürdüyü şərtlər heç bir halda dəyişə bilməz

**İrəvan sülh müqaviləsi ilə bağlı təkliflərini Bakıya göndərib və biz bu sənədləri imzalamağa hazır olduğumuzu bildiririk. Bunu hökumətin iclasında Ermənistanın Baş naziri Nikol Paşinyan deyib. Baş nazir bildirib ki, təklif sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiyanın gələcək işi ilə bağlıdır:** ”Ermənistan regional kommunikasiyaların açılması ilə bağlı təkliflərini verib və ümid edirəm ki, Azərbaycanın reaksiyası müsbət olacaq”.

Paşinyan bəyan edib ki, İrəvan regionda sülh və sabitliyin təmin edilməsi üçün səylərini davam etdirəcək: ”Biz missiyanın mürəkkəbliyini başa düşürük, lakin bu, bizim məqsədyönlülüyümüzü dəyişmir”.

Xatırladaq ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşdən sonra keçirilən mətbuat konfransında bildirmişdi ki, Azərbaycan tərəfinin üçüncü cavab paketi artıq Ermənistan tərəfinə təqdim edilib. Nazir vurğulamışdı ki, ilin sonuna kimi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların üçüncü raundu keçirilə bilər.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə bildirib ki, ilin sonunadək Ermənistanla sülh müqaviləsinin bağlanması ilə bağlı ehtimallar var idi.** Partiya rəhbəri qeyd edib ki, hətta Ermənistan Baş naziri Nikol Paşinyan sülh müqaviləsinin ilin sonuna kimi mümkünlüyünü ifadə etmişdi: ”Rəsmi Bakının sülhlə bağlı prinsipial mövqeyi ortadadır. Beynəlxalq hüquqi bazaya əsaslanan əsas prinsiplərimizi - 5 şərtimizi irəli sürmüşük. Əslində İrəvan hökuməti də Bakının şərtlərini qəbul etdiyini bildirib, etirazının olmadığını söyləyib. Ancaq əfsuslar olsun ki, Paşinyanın ritorikası dəyişkəndir. Hər hansı məsələ ilə bağlı açıqlamasından sonra daxildən və xaricdən, ələlxüsus Rusiya, Fransa və İrandan aldığı təzyiqlər nəticəsində öz fikirlərindən yayınır. Mövqeyi tez-tez dəyişdiyi üçün açıqlamaları da bir-biri ilə ziddiyyət təşkil edir. Bütün bunlar isə sülh prosesinin uzanması ilə nəticələnir. Ermənistan tərəfi özü üçün uyğun zamanı gözləyir. Ancaq sülh müqaviləsinin uzanması həm də bölgədə gərginliyin qalması, kritik dönəmin davam etməsi deməkdir. Bu isə həm də Rusiya sülhməramlılarının Qarabağda qalmasına zəmin yaradır”.

*A.Əlizadə vurğulayıb ki, Azərbaycanın irəli sürdüyü şərtlər heç bir halda dəyişə bilməz. Ermənistanın rəsmi Bakıya təklif etdikləri ilə bağlı rəsmi açıqlamanın olmaması göstərir ki, İrəvanın təklifləri qəbuledilməz və müzakirə olunmazdır:* ”Azərbaycan bütün ərazilərinə birbaşa özü nəzarət etməlidir. Ölkəmizin ərazi bütövlüyü və suverenliyimiz dünya birliyi tərəfindən qəbul olunub. Azərbaycan ərazisində heç bir qondarma qurumun mövcudluğuna imkan yarana bilməz. Proses uzanarsa, Azərbaycan radikal addımlar atmağa, antiterror əməliyyatlarına başlamağa məcbur qalacaq. Erməni tərəfi prosesləri düzgün dəyərləndirməli və baş verənlərdən nəticə çıxarmalıdır. Azərbaycan siyasi, iqtisadi və hərbi cəhətdən Ermənistanla müqayisə olunmayacaq dərəcədə güclüdür”.

**İsmayıl Qocayev**

# İrəvanın növbəti arzusu suya düşdü

## Qarabağa hansısa missiyanın göndərilməsi üçün Azərbaycanın razılıq verməsi lazımdır

**Ermənistan BMT strukturlarını vəziyyətlə yerində tanış olmaq üçün Dağlıq Qarabağa faktaraşdırıcı missiya göndərməyə çağırıb.**



Bunu Ermənistanın təşkilatdakı daimi nümayəndəsi Mqer Marqaryan BMT Təhlükəsizlik Şurasının iclasında səsləndirib. Bu məsələ daha sonra Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən də dilə gətirilib. Hökumətin iclasında danışan baş nazir deyib ki, Qarabağ probleminin həllində beynəlxalq ictimaiyyətin fəallığı artırılmalıdır: ”Laçın dəhlizinə BMT, ATƏT və ya ATƏT-in Minsk qrupunun faktaraşdırıcı missiyasının göndərilməsi üçün fəal işləmək lazımdır”.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında deyib ki, İrəvanın bu istəyi beynəlxalq ictimaiyyəti Qarabağda praktik addımlara cəlb etmək niyyətindən irəli gəlir. Ekspert qeyd edib ki, Xankəndi yolunda keçirilən aksiyanı Fransanın dəstəyi ilə BMT TŞ-nin müzakirəsinə çıxara bilsələr də, faktiki olaraq ümumi çağırışlardan başqa heç nəyə nail ola bilmədilər:** ”BMT, yaxud ATƏT Qarabağa faktaraşdırıcı missiya göndərə bilərmi? Ermənistanın istəyinə baxmayaraq, buna nail olması çətindir. BMT-nin ”faktaraşdırıcı missiya”, yaxud müşahidəçilərinin göndərilməsi məsələsi Təhlükəsizlik Şurasında yekdilliklə qəbul olunmalıdır: belə yekdil mövqenin tapılması problemlidir. TŞ üzvü olan Rusiya buna qarşı mövqe sərgiləyə bilər. Qarabağda sülhməramlılarını yerləşdirən Moskva digər ölkələrin, yaxud təşkilatların proseslərə qoşulmasını bölgədəki maraqlarına müdaxilə olaraq görür. Digər yandan Qarabağa hansısa missiyanın göndərilməsi üçün Azərbaycanın razılıq verməsi lazımdır. ATƏT-in proseslərə müdaxiləsi də bu kontekstdə mümkünsüz görünür. Xüsusilə rəsmi Bakının icazəsinin həlledici amil olması fonunda...”.

**A.Nərimanlıya görə, Paşinyanın bu açıqlaması daha çox siyasi manevr xarakteri daşıyır:** ”Erməni ictimaiyyətində ”baş verənlərə görə Rusiya günahkardır” və ”Qarabağdakı ermənilər üçün əlimizdən gələni edirik” rəyini yaradır. Eyni zamanda Moskvaya ”siz bacarmırsınızsa, üçüncü tərəfləri prosesə qoşa bilərik” mesajı verməklə rusların aksiyaya qarşı hərəkətə keçməsinə sövq etmək istəyir”.

**İsmayıl Qocayev**

# Demək olar ki, Azərbaycanda hər kəs virusla təmasda oldu

## Çindəki yoluxma sayının yüksək artımı bizə ciddi təsir göstərməyəcək

**Çində koronavirusa yoluxmanın yeni dalğası başlayıb. Çin hökuməti sərt karantin rejiminin yumşaldılmasından sonra xəstəliyin kəskin dərəcədə artmasının qarşısını ala bilmir.**



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Çində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarının artmasından narahat olduğunu bildirib. ÜST-nin baş direktoru Tedros Adhanom Qebreyesus Çində yayılan genişmiqyaslı koronavirus dalğasından narahat olduğunu bildirib.

O, ölkə hakimiyyətini əhalinin həssas təbəqələrinin peyvəndlənməsini sürətləndirməyə çağırıb. 2020-ci ildən Çində ”Sıfır COVID” strategiyası həyata keçirilir: virusun yayılmasını məhdudlaşdırmaq üçün yoluxmuş insanlarla təmasda olanlar üçün məcburi karantin tətbiq edilir. Lakin ”sıfır dözümlülük” konsepsiyası müsbət nəticə vermədi. Koronavirusu tam yox etmək mümkün olmadı. Virus ilk vaxtlar azalsa da, yenidən çoxaldı. Və bu artım dalğası davam edir. Halbuki dünyanın heç bir ölkəsi virusla mübarizədə Çindəki kimi sərt üsullardan istifadə etmədi.

**İnfeksionist-hepatoloq Mərdan Əliyevin sözlərinə görə, müxtəlif ölkələrin sanitar-epidemioloji vəziyyəti bir-birindən kəskin fərqlənir. Bu gün koronavirusla bağlı əsas diqqətdə saxlanılan məqam yoluxma sayı yox, ağırlaşma və ölüm hallarının qarşısını almaqdır:** ”Bu, vacib göstərici hesab olunur. Peyvəndlənmə prosesi bütün ölkələrdə davam etdirilir. Peyvəndləmə Azərbaycanda da aparılır. Ona görə də əsas hədəf yoluxma yox, ölüm hallarının azalmasıdır. Yoluxmanın artması müxtəlif ölkələrdə epidemioloji vəziyyətdən asılı olaraq dəyişə bilər. Lakin qarşısını ala biləcəyimiz əsas məqam ağırlaşma və ölüm hallarıdır ki, bunun üçün peyvəndlənmə və qorunma vasitələrindən istifadə etməliyik”.

*Həkimin sözlərinə görə, COVID-19 yeni yayılanda Çin çox güclü karantin hesabına virusun qarşısını ala bilmişdi. Amma ”Omikron” variantı gəldikdə onun daha sürətli yoluxma qabiliyyəti olduğu üçün bunun qarşısını ala bilmirlər:* ”Sürətli artım orada güclü karantin qaydalarının tətbiqi ilə müşahidə edilir. Buna rəğmən artım yenə də müşahidə edilir. Bunun səbəbi onlarda kollektiv immunitetin formalaşmaması ilə bağlıdır. Çində olan insan bu virusla təmasda olmadı, indi yenidən sürətli artım müşahidə edilir.

Bizdə isə vəziyyət fərqlidir. Demək olar ki, hər kəs virusla təmasda oldu. Peyvəndin xəstəliyi yüngül keçirmədə də çox böyük rolu oldu. Bununla belə biz də dünyanın bir hissəsiyik və Çində belə yüksək artımların olması bizə də öz təsirini göstərəcək. Amma bu artım çox ciddi rəqəmlərlə olmamalıdır. Xəstəlik bizdə ağır keçməyəcək. Çünki kimsə yoluxursa, artıq 2-ci, ya da üçüncü dəfə bu virusa yoluxur. Belə olan halda da artıq immunitet əldə edib deyə daha yüngül gedişli olur”.

**Şəymən Bayramova**

# Azərbaycan yeganə ölkədir ki...

## Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə ən yüksək səviyyədə strateji münasibətlər mövcuddur

**“Azərbaycan bəlkə də, yeganə ölkədir ki, bütün Balkan ölkələri ilə, sadəcə Balkan ölkələri ilə deyil, ümumiyyətlə, Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə ən yuxarı səviyyədə strateji münasibətləri mövcuddur”.**



Bu barədə politoloq Turab Rzayev deyib. Analitik bildirib ki, Balkan regionu, etnik, dini, siyasi cəhətdən kifayət qədər qarışıq regiondur. Hətta qlobal supergüclər də bu regionda sırf bəzi ölkələr ilə daha xüsusi əlaqələrə malikdir: ”Bəzi ölkələri dəstəkləyirlər, avtomatik olaraq digər ölkələr ilə soyuq, hətta bəzən düşmən münasibəti saxlamalı olurlar. Həm Xorvatiya, həm Serbiya, həm Bosniya, həm Albaniya ilə, həm Rumıniya, həm də Macarıstanla müsbət, hətta strateji səviyyədə əlaqə saxlamaq çox nadir dövlətlərin xarici institutlarının bacardığı məsələdir. Bu səviyyədə ancaq ABŞ kimi superdövlətlər xarici siyasət yeridirlər ki, o da daha diplomatik qabiliyyətdən çox digər bütün ölkələr onunla hesablaşmağa məcbur olduğu üçün effektiv alınır. Hətta ABŞ belə Kosovaya görə Serbiya ilə, Rusiya ilə dərin münasibətlərə görə Bolqarıstanla, rusiyameyilli qüvvələr seçkidə qalib gəldikdə Makedoniyadakı hakimiyyətlə yola getmir. Azərbaycan Kosovanın himayədarlarından Türkiyə ilə strateji müttəfiq olsa da, Serbiya ilə çox yüksək əlaqələri saxlamağı bacarıb. Eynilə Serbiya ilə ulduzu heç cür barışmayan Albaniya Azərbaycanın Frankofoniya birliyində və BMT-də əsas müdafiəçilərindən biridir. Hətta nə qədər qəribə olsa da, bu yaxınlara qədər Yunanıstanla çox yüksək səviyyəli əlaqələrimiz mövcud idi. Türkiyə kimi regional güc də son illərdə Azərbaycan modelini mənimsəməyə, ənənəvi olaraq rəqib və ya düşmən sayılan Serbiya və Bolqarıstanla yüksək səviyyəli əməkdaşlıq qurmağa müyəssər olub. Artıq Türkiyə Kosovo problemini Serbiya ilə münasibətlərdən kənar saxlamağı, bolqar türkləri problemini də Bolqarıstanla münasibətləri zədələməyəcək şəraitdə inkişaf etdirməyi bacarır”.

**İsmayıl**

# Ermənistan üzərində növbəti qələbə...

Gürcüstan Bakı və Ankaraya yaxın olmaq istəyir

**”Azərbaycan və Gürcüstan arasında qonşuluq prinsipi, siyasi tərəfdaşlıq, iqtisadi əlaqələr hər iki ölkənin diqqət etdiyi prioritetlərdəndir”.**



*Bunu ”Şərq”ə analitik Əhəd Məmmədli Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin görüşünü şərh edərkən deyib.* Onun sözlərinə görə, müdafiə nazirlərinin Türkiyədəki görüşü ölkəmizin Ermənistan üzərində qələbəsi, Azərbaycan-Türkiyə siyasi hərbi blokunun güclənməsi, qardaş dövlətin Cənubi Qafqaza daxil olmasından xəbər verir:

”Artıq Gürcüstan da regionda güclərin dəyişməsi reallığını hiss edir. Rəsmi Tbilisi rəsmi Bakı və rəsmi Ankaraya yaxın olmaq istəyir. Həmçinin Türkiyə və Azərbaycanın da maraqlarına cavab verir.

Çünki Gürcüstan tranzit ölkəsidir, neft boruları oradan keçir. Digər dövlətlər bizə qarşı rəsmi Tbilisidən istifadə etməyə çalışacaq. Məsələn, Fransa silahları Ermənistana tranzit ölkə olaraq Gürcüstandan göndərmək istəyir.

Azərbaycan çalışmalıdır ki, rəsmi Tbilisi buna imkan verməsin. Yəni İkinci Qarabağ müharibəsində olduğu kimi indi də Gürcüstanı öz tərəfimizdə saxlamağa nail olmalıyıq.

Görünür ki, Türkiyədəki məlum görüş adıçəkilən ölkələrin hərbi cəhətdən əlaqələrinin gücləndirilməsi və birgə addımlamasını nəzərdə tutur”.

*Qeyd edək ki, dekabrın 21-də Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənov gürcüstanlı həmkarı ilə Türkiyədə görüşüb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.*

**Sücayət Mehti**

# Vaxtın bitməsini gözləmədi

## Netanyahu yeni hökuməti formalaşdırıb

**İsraildə noyabrın 1-də keçirilən seçkilərdən sonra ”Likud” Partiyasının sədri Benyamin Netanyahuya hökuməti formalaşdırmaq tapşırılıb. O, 21 dekabrda verilən vaxtın bitməsinə dəqiqələr qalarkən Prezident İsaak Herzoqa zəng edərək hökumət kabinetinin hazır olduğunu bildirib.**



Netanyahunun baş ofisindən verilən məlumata görə, o, Herzoqla telefon danışığında ”Seçkilərdə qazandığımız xalqın dəstəyi sayəsində bütün İsrail vətəndaşlarına xidmət edəcək hökuməti qurmağı bacardığımızı sizə bildirmək istədim” sözlərindən istifadə edib.

Qeyd edək ki, Netanyahu kabinetin kimlərdən ibarət olduğunu tezliklə açıqlamaq məcburiyyətində deyil. İsrail mediasının məlumatına görə, Netanyahunun hökumət kabinetinin İsrail Milli Məclisində etibar çıxışının yanvarın 2-də həyata keçirilməsi gözlənilir.

Xatırladaq ki, seçkilərdə Netanyahunun rəhbəri olduğu ”Likud” Partiyası 32 kürsü ilə birinci, Baş nazir Yair Lapidin lideri olduğu ”Yesh Atid” Partiyası 24 stul ilə ikinci, Benni Gantzın rəhbərliyi altındakı ”Beynəlxalq Birlik” Partiyası 12 kreslo ilə üçüncü yeri tutublar.

*Netanyahunun lideri olduğu sağ blok 120 kürsülük məclisdə 64 yer qazanaraq hökuməti qurmaq üçün səs çoxluğunu əlinə alıb.*

**Nihat Müzəffər**




# Paşinyanın sülhməramlıları günahlandırması təxribatdır

## Laçın yolu istər humanitar məqsədlə, istərsə də mülki şəxslərə açıqdır

**Ermənistan Baş naziri Rusiya sülhməramlılarının fəaliyyətini, daha doğrusu, Laçın yolundakı aksiya ilə bağlı üzərinə düşən öhdəliklərini yerinə yetirməməkdə ittiham edib. O deyib ki, Rusiya sülhməramlı kontingenti üçtərəfli sənədlə müəyyən edilmiş öhdəliklərini, yəni dəhliz üzərində nəzarəti yerinə yetirmir. Rusiya Xarici İşlər Nazirliyinin cavabı gecikməyib.**

XİN sözçüsü Mariya Zaxarova bildirib ki, sülhməramlılara qarşı bu cür münasibət qəbuledilməzdir. Onun sözlərinə görə, Rusiya sülhməramlıları öz missiyasını icra edir: "Vəziyyətin sabitləşməsi üçün bütün tədbirlər görülür, iş aparılır. Əgər kim bilmirsə, ancaq siyasi bəyanatlara istiqamətlənirsə, xatırlatmaq istəyirəm ki, buna qədər də gərginlik olub, dəfələrlə problemlər olub, tərəflər bir-birini ittiham ediblər. Məhz Rusiya sülhməramlıları vəziyyətin sabitləşməsi üçün hər şeyi ediblər və bu onlarda alınıb".

Xatırladaq ki, Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının imzaladıqları 10 noyabr bəyanatının maddələrində Qarabağdan silahlı erməni birləşmələrinin çıxarılması və bütün kommunikasiya xətlərinin açılması nəzərdə tutulurdu. Amma rəsmi İrəvan bu iki öhdəliyi yerinə yetirməkdən boyun qaçırır. Qabağda hələ də erməni terrorçu birləşmələri qalır, Ermənistan Zəngəzur dəhlizinin açılmasının qarşısını alır. Üstəlik, Azərbaycanın humanitar dəhliz kimi verdiyi Laçın yolundan ermənilər silah daşınması, terrorçuların Xankəndiyə yerləşməsi və Azərbaycan sərvətlərinin talanması üçün istifadə edir.

> "Moskvanın sərt reaksiyasının səbəbi Paşinyanın dediyi faktlar yox, Azərbaycan tərəfinin yaratmaq istədiyi reallıqlardır"

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Paşinyanın sülhməramlıları günahlandırması provokasiyadan başqa bir şey deyil. Analitik deyib ki, sülhməramlıları günahlandıracaq bir tərəf varsa, o da Azərbaycandır:** "Axı Qarabağda ermənilərə nə olub ki, ruslar onları müdafiə etməlidir? Laçın yolu istər humanitar məqsədlə, istərsə də mülki şəxslərə açıqdır. Bunu Azərbaycan tərəfi dəfələrlə bəyan edib. Hansı erməni ekoloji terrorla əlaqəli piket keçirilən ərazidən keçmək üçün müraciət edib və onun keçidi təmin edilməyib? Azərbaycan tərəfi əslində bu keçidlərdə maraqlıdır. Təsəvvür edin, hansısa erməni ailəsinin piket keçirən azərbaycanlıların arasından sərbəst, təhlükəsiz keçidi təmin edilir. Nəticədə erməni və azərbaycanlı vətəndaşlar arasında etimad və qarşılıqlı güvən mühiti formalaşır. Bəlkə də bu, heç kimin vasitəçiliyinə ehtiyac olmadan ikitərəfli qarşılıqlı dialoqun yaranmasına şərait yaradır".

**A.Qasımova görə, Moskvanın sərt reaksiyasının səbəbi Paşinyanın dediyi faktlar yox, Azərbaycan tərəfinin yaratmaq istədiyi reallıqlardır:** "Rusiya tərəfi daha çox Azərbaycan və Qarabağ erməniləri arasında yaranacaq etimad mühitindən qorxur. Ona görə də qorxu mühitinin qalmasında maraqlı olduğu üçün ermənilərin keçidini təmin etmək istəmirlər. Rus sülhməramlıları onlara Xankəndidən çıxmağa belə imkan vermirlər. Odur ki, "sülhməramlıların" məqsədinin açılması rəsmi Moskvanı qorxudur və buna görə Zaxarova Paşinyana sərt reaksiya verir. Kreml sözçüsü Dmitri Peskovun da eyni bəyanatla çıxış etməsi bir daha onu göstərir ki, rəsmi Moskva hadisələrin bu formada inkişafından narahatdır. Durumun onların lehinə işləmədiyini anlayırlar".

**İsmayıl Qocayev**

# Astanada I Mərkəzi Asiya Media Forumu keçirilib

## Azərbaycan nümayəndə heyəti forumda iştirak edib




**20 dekabr tarixində Astana şəhərində keçirilən və dünyanın müxtəlif ölkələrindən olan rəsmilər, media və biznes nümayəndələri, siyasi xadimlər, media azadlığı üzrə müdafiəçilər, beynəlxalq təşkilatların medianın inkişafı üzrə təmsilçiləri, həmçinin müasir dövrün qlobal problemləri üzrə alim və ekspertlər daxil olmaqla 300-dən çox iştirakçını əhatə edən I Mərkəzi Asiya Media Forumunda Azərbaycan nümayəndə heyəti ilə təmsil olunur.**

Media Forumun "Vahid media platformasının formalaşdırılması perspektivləri" mövzusunda keçirilən panel sessiyasında çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, ölkələrimiz haqqında həqiqətlərin beynəlxalq media vasitəsilə dünya ictimaiyyətinə obyektiv və düzgün çatdırılması məqsədilə Azərbaycan və Türkiyənin birgə media platforması yaradılıb, həmçinin Özbəkistan və Qazaxıstan Respublikalarının analoji qurumları ilə Anlaşma Memorandumları imzalanıb. Vurğulanıb ki, dövlətlərimizə və cəmiyyətlərimizə qarşı yönəlmiş dezinformasiya kampaniyalarına qarşı mübarizə kontekstində ölkələrimizin media qurumları arasında sıx əməkdaşlıq son dərəcə vacibdir.

Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın yolunun, guya, Azərbaycan tərəfindən bağlanması kimi xəbərlərin ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyasının son nümunəsi olduğu diqqətə çatdırılaraq bildirilib ki, reallıqda Azərbaycan vətəndaş cəmiyyətinin fəalları ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarına qarşı etiraz aksiyası keçirir və mülki nəqliyyatın keçməsi üçün hər cür şərait yaradırlar. Vurğulanıb ki, bu həqiqəti beynəlxalq auditoriyaya effektiv şəkildə çatdıra bilmək olduqca əhəmiyyətlidir və bunun üçün birlikdə çalışmalıyıq.

*Qeyd edək ki, Media Forumun əsas müzakirə mövzuları "yeni medianın inkişafı", "informasiya təhlükəsizliyinin təmin edilməsi üçün regional və qlobal əməkdaşlıq imkanları", "media sahəsində süni intellekt texnologiyaları", "Mərkəzi Asiyada yaradıcı sənayenin inkişafı", "vətəndaş cəmiyyətinin və biznes əlaqələrinin inkişafında medianın rolu"dur.*

# Rusiya, İran, Ermənistan anlamalıdır

## Tərəqqi və təhlükəsizlik dinc qonşuluq münasibətləri və əməkdaşlıqdan keçir

**Xəbər verdiyimiz kimi, dekabrın 21-də Türkiyədə Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirləri arasında üçtərəfli formatda görüş keçirilib. Görüşdə hər üç ölkənin müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub.**

Həmçinin ikitərəfli və üçtərəfli birgə təlimlərin keçirilməsinin vacibliyi, eləcə də regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Daha sonra üç ölkə arasında birgə bəyanat imzalanıb.



> "Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığı bölgənin təhlükəsizliyinin təmin olunması üçün tarazlaşdırıcı rol oynayacaq"

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli formatda görüşün keçirilməsi və sonda birgə bəyanat imzalanması hazırda dünyada yaşanan geosiyasi təlatümlər fonunda Cənubi Qafqaz bölgəsində sülh və sabitliyin bərqərar olunmasında böyük əhəmiyyətə malikdir.** Eləcə də bu, üç dost və müttəfiq ölkə arasında hərbi əməkdaşlığın daha da genişləndirilməsi baxımından önəmlidir: "Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığı bölgənin təhlükəsizliyinin təmin olunması üçün tarazlaşdırıcı rol oynayacaq. Eyni zamanda bölgəni özünün hərbi-siyasi avantüraları üçün plasdarma çevirmək istəyən bəzi qonşu ölkələrin və qlobal güclərin qarşısını kəsməyə kömək edəcək. Bu üç ölkənin mehriban qonşuluq və dostluq siyasəti bölgəmizi daim qaynar qazana çevirməyə can atan Rusiya, İran, Ermənistan kimi aktiv qonşularımız üçün də müsbət nümunə ola bilər. Təəssüf ki, Azərbaycanın təklif etdiyi "3+3" formatında əməkdaşlıq modeli məhz bu qonşularımızın destruktiv mövqeyi üzündən hələ də reallaşmamış qalır. Lakin ümid edirik ki, onlar da nə vaxtsa Azərbaycan, Türkiyə və Gürcüstan kimi rasional siyasət yürütməyə başlayacaq, tərəqqi və təhlükəsizliyin yolunun məhz dinc qonşuluq və əməkdaşlıqdan keçdiyi həqiqətini qəbul edəcəklər".

**İsmayıl Qocayev**




# Sürücülük imtahanlarını DİM keçirsə effektiv olmayacaq

## İmtahanların hansı qurum tərəfindən keçirilməsi o qədər də əhəmiyyət kəsb etmir

**Sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların nəzəri hissəsinin Dövlət İmtahan Mərkəzinə verilməsi ilə bağlı zaman-zaman təkliflər səsləndirilir.**

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə isə deyib ki, müraciət olarsa, sürücülük imtahanlarını keçirə bilərik: "Hesab edirəm ki, biliklərin yoxlanılmasında hansısa formatda prosesə qoşula bilərik. Lakin təbii ki, real sürücülük qabiliyyətini yoxlaya bilmərik. Yeni imtahan mərkəzində bunun üçün imkanımız olacaq. Biz hansısa imtahanı keçirmək üçün heç kimlə danışıq aparmırıq. Hökumət nə sifariş verirsə, onu yerinə yetiririk".

> Əsas məsələ, Azərbaycanda sürücülük imtahanı ilə bağlı istifadə olunan nəzəri proqramlar dəyişdirilməlidir

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov isə "Şərq"ə açıqlamasında deyib ki, sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların Dövlət İmtahan Mərkəzinə verilməsi effektiv olmaz:** "Uzun illərdir Daxili İşlər Nazirliyinin Dövlət Yol Polis İdarəsində bu imtahanları keçirmək üçün baza formalaşıb, bütün resurslar var. Sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların təşkili üçün DİM-də lazımi resurslar varmı? Ümumiyyətlə, qurum özü bu yükün altına girməyə hazırdımı? Həm də ki, imtahanı DİM keçirsə belə DYP əməkdaşlarının imtahan prosesində iştirakı mütləqdir. İmtahanın qəbulu, vəsiqələrin verilməsi onların səlahiyyətindədir. Belə olan halda sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların nəzəri hissəsinin DİM-ə verilməsi o qədər də doğru bir məsələ deyil. Peşəkar sürücü hazırlayan obyektiv, şəffaf imtahan sistemi və sürücü təhsili olmalıdır. Bir imtahanda iki qurumun təşkilatçılıq etməsi əlavə prosesdir və imtahanların DİM tərəfindən keçirilməsi xüsusi bir dəyişikliyə səbəb olmayacaq. Əsas məsələ imtahanın necə götürülməsidir və bu proses DYP tərəfindən normal qaydada icra olunur".

**Hüquqşünas Ərşad Hüseynov isə hesab edir ki, imtahanların hansı qurum tərəfindən keçirilməsi o qədər də əhəmiyyət kəsb etmir:**

"Əsas məsələ imtahanın necə götürülməsidir. Sürücülük və yol qaydaları ilə bağlı dəqiq, müasir proqram olmalıdır. Hazırda Azərbaycanda sürücülük imtahanı ilə bağlı istifadə olunan nəzəri proqramlar 80-ci illərdən mövcud olandır. Əksəriyyət imtahandan birtəhər keçə bilmək üçün proqramı əzbərləməklə məşğuldur. Proqramı dəyişmək lazımdır. 2018-ci ilin dekabr ayında "Yol hərəkətinin təhlükəsizliyinə dair dövlət proqramı"nda da qeyd olunub ki, Azərbaycanda sürücü hazırlığı ilə bağlı qanunvericilik təkmilləşdirilsin. Peşəkar sürücü hazırlayan obyektiv, şəffaf imtahan sistemi və sürücü təhsili olmalıdır. İmtahanın hansı dövlət qurumunda keçirilməsinin isə önəmi yoxdur".

**Şəymən**

# Paşinyanın təklifləri reallıqdan uzaqdır

## Baş nazir qəsdən sülh prosesini uzatmağa çalışır

**"Ermənistan Azərbaycana sülh müqaviləsinə dair təkliflərini təqdim edib".**

**Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.**

O bildirib ki, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, sərhəddə təhlükəsizlik təminatları ilə bağlı təkliflər də verilib.

N.Paşinyan əlavə edib ki, Rusiya sülhməramlı kontingenti üçtərəfli bəyanatla təsbit olunmuş öhdəliklərini yerinə yetirmir.

Xatırladaq ki, daha əvvəl rəsmi Bakı sülh sazişi layihəsi ilə bağlı təklifləri rəsmi İrəvana təqdim etmişdi.



**Ermənistandan səmimiyyət gözləmədiyini deyən millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov "Şərq"ə bildirib ki, Laçında baş verən hadisələr onların bütün vasitələrdən istifadə edərək sülh müqaviləsinin imzalanmasına səmimi yanaşmadıqlarını göstərir:** "Paşinyanın irəli sürdüyü təkliflər reallıqdan uzaqdır. Düzdür, konkret hansı bəndlər təklif olunduğunu bilmirəm. Çünki mətn parlamentə deyil, Xarici İşlər Nazirliyinə göndərilir. Amma əminəm ki, tərtib olunan təkliflər qəsdən vaxtı uzatmağa və vəziyyəti stabillikdən kənarlaşdırmağa xidmət edəcək şəkildə hazırlanıb.

Ümumiyyətlə, onların maraqlarının içində başqa niyyətlər ehtiva olunur. Paşinyan Ermənistanın maraqlarını möhkəmləndirmək üçün yaydığı yalanları dünya ictimaiyyətinə qəbul etdirmək siyasəti yürüdür".

**Parlamentari qeyd edib ki, ermənilər yenə həm sülh müqaviləsi, həm də Qarabağla bağlı özlərini yazıq və təzyiqlərə məruz qalan bir millət kimi göstərməyə başlayıblar**: "Dünya isə bunların yalan və reallıqdan uzaq bir məsələ olduğunu yaxşı bilir. Bu gün reallığı müşahidə etmək üçün yetəri qədər vəsait var. Ciddi düşünən qurumlar və təşkilatlar da bunu yaxşı bilirlər.

Düzdür, biz Laçın dəhlizi ilə bağlı 6-cı bəndə əsasən cavabdehlik daşıyırıq. Ancaq bu cavabdehlik humanitar məsələlərlə əlaqədardır. Amma oradan silah daşınması və terrorçuların keçməsi üçün heç bir öhdəliyimiz yoxdur.

Əgər belə olacaqsa, o zaman həmin yol terrorçuların marşrutuna çevriləcək. Danışıqlarda isə səmimi olmaq lazımdır. Paşinyanın dünənki və bugünkü açıqlamaları səmimiyyətdən tam uzaqdır".

**Nihat Müzəffər**



# ABŞ-nin əli Volodimir Zelenskinin çiynindədir

## Ukrayna Prezidenti Qərbdən güclü silah almaqla, döyüş əməliyyatlarının miqyasını genişləndirməyə çalışır

İsmayıl Qocayev

**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya ilə savaş başlayandan sonra ilk dəfə xaricə səfər edib. ABŞ-yə səfər edən Zelenski amerikalı həmkarı Cozef Bayden və Nümayəndələr Palatasının spikeri Nensi Pelosi ilə görüşüb. Zelenski Konqresdə çıxış da edib. Dünya mediası kritik səfərin arxasındakı gizli əməliyyatdan yazıb. Qeyd olunub ki, ukraynalı liderin təhlükəsiz şəkildə Vaşinqtona çatmasını təmin etmək üçün NATO-nun casus təyyarələri və ABŞ döyüş təyyarələri hərəkətə keçib.**

Qeyd edək ki, bu gün ABŞ Prezidenti Kiyevə 1 milyard dollar vəsaitin ayrılması haqqında sərəncam imzalayıb. Baydenlə görüşündə müdafiə dəstəyinin davam edəcəyi vədini alan Zelenski Vaşinqton səfərindən razı qalıb. Bildirib ki, Ukraynanın mübarizəsi "övladlarımızın və nəvələrimizin hansı dünyada yaşayacağını müəyyənləşdirəcək". Qeyd edib ki, bütün fəlakətlərə baxmayaraq, Ukrayna yıxılmadı: "Ukrayna yaşayır və güclüdür". O, ABŞ-yə hərbi texnika və maliyyə dəstəyinə görə təşəkkür edib: "Sizin maliyyəniz xeyriyyəçilik deyil. Bu, ən məsuliyyətli şəkildə yanaşdığımız qlobal təhlükəsizlik və demokratiyaya sərmayədir". Zelenski nitqini Ukraynanın şərqində, Kiyev qüvvələrinin aylardır şiddətli döyüşlər apardığı Baxmut şəhərinin ukraynalı müdafiəçiləri tərəfindən ona verilmiş döyüş bayrağını Konqresə təqdim edərək yekunlaşdırıb. Ukrayna lideri qeyd edib ki, Vaşinqtonda apardığı danışıqların əsas məqsədi ölkənin müdafiəsinin gücləndirməsidir: "Evə gətirəcəyimiz gözəl xəbərimiz var. Prezident Bayden bu gün Ukrayna üçün təxminən 2 milyard dollarlıq yeni yardım paketini elan etdi və bu paketin ən güclü elementi - "Patriot" kompleksi bizim hava hücumundan müdafiəmizi əhəmiyyətli dərəcədə gücləndirəcək. Biz gələn ildən nə gözlədiyimiz və nəyə hazırlaşdığımız barədə ətraflı danışdıq. Bu, bütün ukraynalılar üçün vacibdir". Zelenski vurğulayıb ki, Ukraynanın dağılmış infrastrukturunun, ilk növbədə enerjinin bərpası, Rusiyaya qarşı növbəti sanksiyalar və hüquqi təzyiqlər müzakirə edilib. Co Bayden ABŞ, müttəfiqləri və dünya üzrə tərəfdaşlarının Ukrayna xalqına və Ukrayna silahlı qüvvələrinə göstərdiyi yardımı vurğulayıb: "Rusiyaya qarşı presedenti olmayan sanksiyalar və ixraca nəzarət Kremlin amansız müharibəni aparmasını çətinləşdirir. 50-dən çox ölkə (Ukraynanı) 2000-ə yaxın tank və digər zirehli texnika, 800-dən çox artilleriya sistemi və 2 milyondan çox artilleriya sursatı ilə təchiz edib". "Vaşinqton Post" qəzeti isə Zelenskinin Vaşinqtonda razılığa gələ bilmədiyini yazıb. Nəşr bildirib ki, Ukrayna Prezidenti ABŞ-yə səfəri zamanı əsas məqsədinə nail ola, daha müasir silahlar əldə edə bilməyib. İddia olunur ki, Ukrayna Prezidenti və müşavirləri Baydenin təmin etmək istəmədiyi qabaqcıl silahların göndərilməsi üçün Vaşinqtona təzyiq etməyə davam edirlər. Zelenskinin ABŞ-dən sonra Böyük Britaniya, Fransa və Almaniyaya səfər edə biləcəyi deyilir.





THE TIMES

THURSDAY DECEMBER 22 2022

WAR IN UKRAINE

Biden gives Zelensky a hero's welcome — and Patriot missiles

President Zelensky of Ukraine was hailed as "the man of the year" by President Biden as the pair sat down for a meeting in the Oval Office yesterday, 300 days since the Russian invasion of his country. Zelensky, wearing khaki fatigues, was greeted by Biden and his wife, Jill, on a red carpet outside the White House. He began his whistlestop visit to Washington — the...

Kremlin mətbuat katibi Dmitri Peskov da Zelenskinin ABŞ-yə səfərinə münasibət bildirib. O deyib ki, Zelenskinin ABŞ-yə səfəri təsdiqlədi ki, Vaşinqton Rusiya ilə son ukraynalıya qədər defakto və dolayı yolla mübarizəni davam etdirir: "Moskva təəssüf edir ki, nə Bayden, nə də Zelenski Rusiyanın narahatlıqlarını dinləməyə potensial hazır olduqlarını nümayiş etdirməyiblər". Kremlin sözçüsü Ukraynaya Qərb silahlarının tədarükünün münaqişənin həllinə kömək etmədiyini, ancaq Ukrayna xalqının iztirablarını uzatdığını söyləyib. O bildirib ki, Amerikanın "Patriot" sistemləri, Ukrayna Silahlı Qüvvələrini təmin edən digər silah növləri kimi Rusiya ordusu üçün qanuni hədəfdir: "Ukraynaya verilən silahların çeşidinin genişləndirilməsi Rusiya Federasiyasının xüsusi əməliyyatın məqsədlərinə çatmasına mane ola bilməz", - deyə Peskov qeyd edib.

**Zelenskinin ABŞ-yə səfərini "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadə deyib ki, Ukrayna Prezidentinin Amerika səfəri qızğın döyüşlərin getdiyi Baxmutdan başlayıb. Analitik qeyd edib ki, Zelenski Qərbdən güclü silahlar istəyir:**

"Həmçinin döyüş əməliyyatlarının coğrafiyasını və miqyasını genişləndirməyə çalışır. Zelenski ölkə ərazilərini azad etmək, Donbassı, Krımı ruslardan təmizləmək istəyir. Digər tərəfdən hesab edir ki, bununla kifayətlənmək olmaz. Moskvanı tamamilə çökdürmək üçün Rusiyanın özünə zərbələr vurulmalıdır. Düşünür ki, əməliyyat Rusiya ərazisinə keçməzsə, əks-hücum əməliyyatları o qədər də effektli olmayacaq. ABŞ isə bunun əleyhinədir. Amerika rəhbərliyi hesab edir ki, müharibənin miqyası genişlənsə, Rusiya NATO ölkələrinə də zərbələr endirə bilər. Bu isə üçüncü dünya savaşının başlanması anlamına gəlir. Vaşinqtonun hədəfi Moskva üzərində tam qələbə qazanmaq yox, Rusiyanı zəifləməkdir. İndi bunu Ukraynanın əliylə edirlər. Zelenskinin bu məsələdə israrlı olması ABŞ-dəki dairələrlə aralarında ziddiyyətlərə səbəb olur".

# Xankəndidən qovulan yerli türklər də şüar açdı

## Aksiya ekoloji problemlərlə yanaşı insan haqları mövzusuna da çevrilir




**"Ekoaktivistlərin başlatdığı etiraz aksiyası gözlənildiyi kimi yeni fazaya keçməkdədir". Bu barədə "Şərq"ə Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib. Partiya təmsilçisi qeyd edib ki, aksiya ekoloji problemlərlə yanaşı insan haqları mövzusuna da çevirilir:**

"Qərəzli qüvvələr aksiyaları erməni azlığının "hüquqlarının pozulması" və "humantiar fəlakət" kimi qiymətləndirsələr də, reallıq başqadır. Etirazçılar arasında Xankəndidən qovulan yerli türklərin şüar açdığının şahidi olduq. Qarabağ işğal olunarkən Xankəndidə 12 mindən artıq türk yaşayırdı. 34 il ərzində Xankəndi əsilli azərbaycanlıların sayı 50 mini ötüb. İndi tam zamanıdır ki, Xankəndi, Xocalı, Kərkicahan və s. şəhər və qəsəbələrimizdən qovulan insanlar yurdlarına dönsünlər. BMT Təhlükəsizlik Şurasının bu günlərdə qəbul etdiyi bədnam qətnamədə yalnız erməni əhalinin hüquqları yer alıb. Bir zamanlar BMT Təhlükəsizlik Şurası məlum 4 qətnamə ilə işğalçıların qeyd-şərtsiz torpaqlarımızdan çıxmasını tələb etmişdisə, sonuncu münasibət bizi bir qədər ehtiyatlı olmağa məcbur etməlidir. Bu istiqamətdə QHT-lərimiz fəallığı artırmalıdır. QHT-lər sanki hadisələrin arxasınca gedir, siyasi texnoloqlarımız vəziyyəti bəzən düzgün dəyərləndirmirlər".

**V.Əfəndiyev vurğulayıb ki, gələcəkdə erməni əsilli vətəndaşlarımızın dövlət qurumlarında iştirakını və təmsilçiliyini nəzərdə tutan qanunlar qəbul edilməlidir:**

"Laçın dəhlizində davam edən etirazların əməli nəticələri üçün güclü dəstək lazımdır. Ekoloqlarımızın Volkovla ilk görüşündə yolda gömrük postunun quraşdırılması səsləndirilsə də, sonradan Rusiya geri çəkildi. Biz bütün imkanlarımızı səfərbər edib bu istiqamətdə çalışmalıyıq. Gömrük postunun quraşdırılmasından sonra Qarabağda yaşamaq istəyən erməni əhali ilə münasibətlərimizi aydınlaşdıra bilərik. Erməni vətəndaşlarımız əmin olmalıdırlar ki, ilk növbədə kommunal, iş və pensiya məsələləri həllini tapacaq. Bununla bağlı erməni əhaliyə müraciətlər etməlidir. Şuşada erməni dilində televiziyanın açılmasına da ehtiyac var".

**Partiya təmsilçisi qeyd edib ki, dövlət başçısının Peterburqa səfəri gözlənilir:**

"Rusiyanın Qarabağa transfer etdiyi Vardanyan məsələsinin Peterburq görüşünün predmeti olacağına şübhə yoxdur. Vardanyan Xankəndiyə gəldiyi gündən erməni əhali arasında qızışdırıcı təbliğatla məşğuldur. Rusiya sülhməramlılarının etirazçılarımızla təmas xəttindən 30 metrədək geri çəkilməsi provokasiya ehtimalını gücləndirir. Mümkündür ki, ruslar "erməni aktivistlərini" bizim qarşımıza çıxartsınlar. Bütün variantlara hazır olmalıyıq".

İsmayıl

# Nə qədər gec deyil, prosesə başlamalıyıq

## Gec-tez Azərbaycanda din fənn kimi tədris olunacaq



**"Bir neçə gündür cəmiyyətdə orta məktəbdə şagirdlərə din haqqında məlumatların verilməsi ilə bağlı geniş müzakirə gedir".**

Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, bununla bağlı müzakirə Azərbaycanda uzun müddətdir aparılır: "Bir məsələyə aydınlıq gətirirəm ki, söhbət orta məktəbdə dinin tədrisindən deyil, ümumi dinlər haqqında məlumatların verilməsindən gedir. Bu fənnin tədrisində əsas məqsəd gənclərə milli-mənəvi dəyərlərimiz haqqında məlumatların verilməsi və onların gələcəkdə zərərli təsirlərdən qorunmasıdır. Nədənsə, cəmiyyətdə belə fikir formalaşıb ki, Azərbaycan İlahiyyat İnstitutunda yalnız islam elmləri tədris olunur. İlahiyyat İnstitutunda tələbələrə digər dinlər də öyrədilir. Gələcəkdə orta məktəblərdə din haqqında bilgiləri Azərbaycan İlahiyyat İnstitutunun tələbələri verə bilərlər. Gec-tez bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da bu fənn tədris olunacaq. Nə qədər gec deyil, prosesə başlamalıyıq. İlkin mərhələdə bu fənnin tədrisinə pilot layihə şəklində də başlamaq olar".

İsmayıl

**Şuşa-Laçın yolunda ekoloqların, ictimaiyyət nümayəndələrinin, vətəndaş cəmiyyəti üzvlərinin keçirdiyi dinc aksiya iştirakçılarından birinin əlində tutduğu plakat çoxlarının diqqətini cəlb edib. Aksiya iştirakçılarından Tahirə Məmmədova hadisə yerində çəkilən fotonu sosial şəbəkədə paylaşaraq bunları yazıb: "Bu xanım Xankəndi sakinidi, həkimdi, aksiyada 3 gün gecə-gündüz yatmayaraq insanların sağlamlığının keşiyində durub.**

# "30 ildir Xankəndi adı çəkiləndə ürəyim titrəyir"

## Həvva Məmmədova: "Müəllim kimi mən də kooperativ mənzil aldım, təmir etdirdiyim mənzilə köçüb yaşaya bilmədim"



"Əminliklə deyə bilərəm ki, 1979-cu ildəki siyahıyaalınmaya əsasən, Xankəndidə yaşayan azərbaycanlıların sayı ermənilərdən qat-qat artıq idi"




Bunun canlı şahidiyəm. Xoş xasiyyətli, vətənpərvər xanımdı. Xankəndidən ürək ağrısı ilə danışır, öz şəhərinə, evinə qayıtmaqdı arzusu. Onun ürək ağrısını başa düşürük. Xankəndidə yaşamış hər bir azərbaycanlıya müraciət edirəm. Aytən xanım kimi aksiyaya qoşulun, öz hüququnuzu, evinizdə - Xankəndidə yaşamaq haqqınızı tələb edin". Qeyd edək ki, Aytən xanımın əlində tutduğu plakatda "Lesnaya küçəsi 12" yazılıb. Bununla xanım 30 ildir tapdanan haqqını tələb edir, "Xankəndi mənim də evimdi. İzin verin, yolumu açın, evimə gedim!" deyir.

**Uzun illər Xankəndidə müəllim işləmiş, erməni separatçılarının ölkəmizin ərazi bütövlüyünə təcavüzü, Qarabağ və ətraf bölgələrdə olduğu kimi Xankəndidə yaşayan azərbaycanlı əhalini yurd-yuvasından didərgin salmaları nəticəsində evindən, ocağından ayrı düşmüş professor Həvva Məmmədova da aksiyaya qatılmağa hazır olduğunu bildirdi. "Şərq"ə açıqlamasında H.Məmmədova Xankəndidə yaşadığı ünvanı da qeyd etdi:**

- Mən Xankəndidə Arşak Aruşanov küçəsi, 37 ünvanında yaşamışam. Xankəndi Pedaqoji İnstitutunu bitirdikdən sonra Nizami adına 4 saylı, sonra da Səməd Vurğun adına 6 saylı məktəbdə müəllim işləmişəm. O illərdə Xankəndidə kooperativ binalar tikilirdi. Müəllim kimi mən də kooperativ mənzil növbəsinə dayandım. Bina tikildi, mənzilə sahib oldum, təmir etdirdim. Lakin nankor ermənilərin başlatdığı torpaq iddiaları Qarabağımızı oda-alova bürüdü, mən təmir etdirdiyim mənzilə köçüb yaşaya bilmədim. Yurd-yuvamızdan didərgin düşdük. 30 ildir Xankəndi adı çəkiləndə ürəyim titrəyir. Evimiz, obamız gözlərimin önündən getmir. Bir məsələni deyim ki, Xankəndidə hər 10 ildən bir əhalinin siyahıya alınması keçirilirdi. 1979-cu ildə keçirilən siyahıyaalmada mən iştirak etmişəm. Və əminliklə deyə bilərəm ki, 1979-cu ildəki siyahıyaalınmaya əsasən, Xankəndidə yaşayan azərbaycanlıların sayı ermənilərdən qat-qat artıq idi. Amma sonrakı illərdə ermənilərin sayı süni şəkildə artırılmağa başlandı, saxtakarlıq edildi. Məqsədyönlü şəkildə erməni əhalisinin sayını artıq göstərməyə başladılar. Necə ola bilər ki, birdən-birə erməni əhalinin sayı artıb 100 min olsun, azərbaycanlılar isə 10 min? Bu, mümkünsüzdü. Azərbaycanlı ailəsində ən azı 2-3 övlad olur. Ata-ana, nənə-baba, uşaqlar. Hər il yeni doğulan körpələr... Ailə tərkibi ildən-ilə böyüyür. Amma ozamankı Xankəndinin (Dağlıq Qarabağ Muxtar Vilayəti) erməni rəhbərləri əhalinin siyahıyaalınmasında iştirak edən ermənilərə qəsdən, biləkdən erməni əhalisinin sayını artıq yazmalarına göstəriş verirdilər. Xankəndinin firavan günləri Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyəti illərində oldu. Nə qədər ki Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi idi, erməni separatçıları əl-qol aça bilmirdilər. Ümummilli Lider siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra ermənilər fəaliyyətə keçdi. Xankəndidə yaşayan yerli əhalini - azərbaycanlıları incitməyə, küsdürməyə başladılar. Bəziləri bu səbəblərdən Xankəndidən ayrıldı, köçüb başqa bölgələrə getdilər. Bu, məqsədyönlü siyasət idi və azərbaycanlı əhalinin sayının azaldılmasına xidmət edirdi.

"Xankəndidə hazırda yaşayan erməni əhali seçim qarşısındadır. Onların əksəriyyəti Azərbaycan bayrağı altında, firavan yaşamaq istəyir. Qeyri-müəyyən vəziyyətin bitməsini istəyirlər"

**H.Məmmədova qeyd etdi ki, azərbaycanlı əhali hər nə qədər sıxışdırılıb çıxarılsa da, yenə erməni əhalinin sayından çoxdur:**

- Xankəndidə hazırda məskunlaşanlar arasında Suriyadan, Livandan köçürülmüş ermənilər çoxluq təşkil edir. Orada doğru-düzgün pasport qeydiyyatı aparılsa, məlum olacaq ki, yerli əhali cüzi saydadır. Heç 15 minə də çatmaz sayları. Mən qəti əminəm ki, Xankəndidə hazırda yaşayan erməni əhali seçim qarşısındadır. Onların əksəriyyəti Azərbaycan bayrağı altında, firavan yaşamaq istəyir. Qeyri-müəyyən vəziyyətin bitməsini istəyirlər. Bir ovuc separatçı isə buna imkan vermək istəmir, əhalini ağır duruma salırlar. Xankəndinin azərbaycanlı əhalisi ölkənin 48 bölgəsinə səpələnib. Təkcə Xankəndi şəhəri deyil, Cəmilli, Meşəli, Kosalar kəndləri, Xocalı, Kərkicahan qəsəbələrinin azərbaycanlı əhalisi artıq 12-ci gündür davam edən dinc aksiyaya qoşulmağa hazırdır. Bizim hər birimiz öz evimizə, küçəmizə qayıtmaq istəyirik və əminəm ki, tezliklə qayıdacağıq!

Məlahət Rzayeva

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;**



© Trend News Agency

# QHT-lər dövlətçilik məsələsində vahid güc nümayiş etdirir

## "Vətəndaş cəmiyyəti ölkədəki ictimai rəyin inikasıdır, xalqın nə demək istədiyinin carçısıdır"

"Laçın-Xankəndi yolunda keçirilən etiraz aksiyası ölkəmizdə vətəndaş cəmiyyəti birliyinin nə dərəcədə inkişaf etdiyini göstərir"

**Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin davamı kimi vətəndaş cəmiyyəti təsisatlarının inkişafına xüsusi önəm verilir. Ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı dövlət siyasətidir və bu sahədə qanunvericilik daim təkmilləşdirilir. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi ilə bağlı mühüm işlər görülür, onların inkişafı üçün əlverişli mühit yaradılır.**

Bunun nəticəsidir ki, ölkəmizdə qeyri-hökumət təşkilatlarının fəaliyyəti ildən-ilə genişlənir. 44 günlük Vətən savaşında genişmiqyaslı fəaliyyət sərgiləyən, həmrəylik nümayiş etdirən, daxildə və beynəlxalq aləmdə sözünü deməyi bacaran qeyri-hökumət təşkilatları postmüharibə dövründə də əzmlə çalışmaqda, proseslərə öz mühüm töhfəsini verməkdədir. İki həftədir Şuşa-Xankəndi yolunda ekofəalların və vətəndaş cəmiyyəti nümayəndələrinin təşkil etdiyi aksiya QHT həmrəyliyini və fəaliyyətini yenidən gündəmə gətirdi. Vətəndaş cəmiyyəti Şuşa-Xankəndi yolunda yeni bir zəfər tarixi yazmaqdadır. QHT nümayəndələrindən ibarət qruplar Laçın yolu istiqamətində aksiya keçirirlər. Tələblər ekoloji istismarla bağlıdır. Uzun müddətdir ki, Qarabağ bölgəsində ekoloji fəlakətlər törədilir, meşələrimiz qırılır və yandırılır, çaylarımız və göllərimiz çirkləndirilir, təbii ehtiyatlarımız talan edilir. Rusiya sülhməramlıları nəzarət etdikləri ərazidə qanunsuz fəaliyyət göstərən, qaçaqmalçılıq yolu ilə əlvan metal yataqlarımızı qarət edən cinayətkarlara Azərbaycanın rəsmi dövlət qurumlarının qərarlarını başa sala bilməyiblər. Beləliklə, rəsmi dövlət qurumlarının qanuni fəaliyyətinə maneə törədilib. Bu hal vətəndaş cəmiyyəti təmsilçilərini narahat etməyə bilməzdi. Belə aksiyaların keçirilməsi açıq cəmiyyətlərdə mütəmadi olaraq baş verən demokratik proseslərdir. QHT-lər öz funksiyalarına uyğun olaraq cəmiyyəti narahat edən müxtəlif məsələlərlə bağlı aksiya keçirməklə diqqəti bu və ya digər problemin həllinə yönəltməyə çalışırlar. Bu həm də, dövlət və xalq olaraq suverenliyimizin qorunması üçün həyata keçirilən "yumşaq güc" siyasətidir.

QHT sektorunda aparılan uğurlu islahatların nəticəsi bu gün özünü aydın şəkildə göstərir. Vətəndaş cəmiyyəti ölkədəki ictimai rəyin inikasıdır. Xalqın nə demək istədiyinin carçısıdır. Bu baxımdan, bir tərəfdən hesab etmək olar ki, bu bir ümumxalq aksiyasıdır, digər tərəfdən isə xarici təhlükə qarşısında birlik, həmrəylik nümayişidir. Laçın-Xankəndi yolunda keçirilən etiraz aksiyası ölkəmizdə vətəndaş cəmiyyətinin birliyini, nə dərəcədə inkişaf etdiyini göstərir. Həmçinin vətəndaş cəmiyyəti fəalları dinc aksiya mədəniyyətinin necə olduğunu həm Ermənistana, həm də onların havadarlarına növbəti dəfə nümayiş etdirirlər. QHT-lər tərəfindən milli birlik modeli bütün dünyaya ən uğurlu şəkildə nümayiş olunur. Şübhəsiz ki, QHT-lər, ictimai fəallar və ekoloqlar tərəfindən təşkil olunan bu etiraz aksiyası, eyni zamanda vətəndaş cəmiyyəti təşkilatlarına etimadın yüksəlməsinə, üçüncü sektorun cəmiyyətin vacib institutuna çevrilməsinə imkan yaradacaq.

**"İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri, "QHT.az" saytının baş redaktoru Cəsarət Hüseynzadə deyib ki, etiraz aksiyası bir neçə vacib elementi özündə ehtiva etdi. Birinci vacib məqam yerli qeyri-hökumət təşkilatlarının milli məsələ ilə bağlı vahid mövqedən çıxış etməsidir ki, həssas dönəmlərdə cəmiyyətin bütün sektorlarının milli mənafeyi ön plana çəkməsi vacibdir:** "Fakt ondan ibarətdir ki, Azərbaycan dövlətinin təbii ehtiyatları olan "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqları qeyri-qanuni olaraq istismar edilir. Azərbaycanın qeyri-hökumət təşkilatlarının müxtəlif mövzularla bağlı fərqli fikir və mülahizələri olsa da, dövlətçilik məsələsində bir daha vahid güc nümayiş etdirməsi dövlət-QHT münasibətlərinin sağlam təməllər üzərində qurulduğunu göstərir". C.Hüseynzadənin sözlərinə görə, digər vacib məqam ondan ibarətdir ki, Azərbaycan QHT-lərinin etiraz aksiyasının hədəfi təkcə lokal və ya milli hədəfləri özündə birləşdirmir: "Hesab edirəm ki, etiraz aksiyasının əsas məqsədi məhz ekologiya və ətraf mühitə dəyən ziyanın, eyni zamanda təbii sərvətlərin talan edilməsinin qarşısının alınmasıdır. Bu iki məqam müxtəlif ölkələrdə, həmçinin beynəlxalq miqyasda QHT hərəkatının əsas missiyalarından biridir. Ətraf mühit məsələsi QHT-lər üçün hər zaman prioritet olub. Çünki bu mübarizədə qarşı tərəfdə iqtisadi və böyük biznes maraqları dayanır. İndi də həmin məqam Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə erməni əsilli müxtəlif iş adamlarının əsas məqsədlərindən biridir".

**QHT rəhbəri diqqətə çatdırıb ki, Laçın yolunda Azərbaycan QHT-lərinin dinc aksiya mədəniyyəti nümayiş etdirməsi tarixə düşəcək bir nümunə oldu:** "Tarixdə baş verən belə uzunmüddətli aksiyalar özünü bir çox hallarda radikal məqamlarla büruzə verir. Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələrinin hərəkətləri və şüarları isə humanitar fəaliyyəti təşviq etmək, sülhü və ədaləti, ətraf mühiti qorumaq çağırışları ilə diqqət çəkdilər. Aksiyanın keçirildiyi dövrdə humanitar və mülki hərəkətlərin həyata keçirilməsi üçün yaradılan şərait məhz beynəlxalq səviyyədə təbliğ olunmalı və nümunə göstərilməlidir. Ötən 10 gün ərzində sərt və çətin hava şəraitində QHT nümayəndələrinin, könüllülərin və ictimai fəalların nümayiş etdirdikləri ruh yüksəkliyi, dözümlülük və iradə, sözün həqiqi mənasında, vətəndaş cəmiyyəti təşkilatları təmsilçilərinin milli maraqların qorunmasında, öz fəaliyyətlərində və ideyalarında prinsipial olmalarından xəbər verir. Sözsüz ki, bu uğur hekayələrinin yaranmasında Azərbaycan dövlətinin QHT-lərə olan dəstəyinin, vətəndaş cəmiyyəti təşkilatlarının tərəfdaş kimi qəbul edilməsinin mühüm rolu var. Hesab edirəm ki, Azərbaycan qeyri-hökumət təşkilatlarının Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyaları ölkəmizdə vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətində yeni mərhələnin başlanğıcı olacaq".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Sağaltmaq lazımdır

## Azərbaycanda müəllim nüfuzu ağır yara alıb

**"Özünü apara bilməyən, bir neçə dəfə tənbeh edilsə də, davranışlarını düzəltməyən, islah olunmayan şagirdlər məktəbdən kənarlaşdırılmalı və belə şagirdlər çətin islah olunan uşaqlar üçün nəzərdə tutulan xüsusi məktəblərə yönləndirilməlidir"**



"Bu gün məktəblərdə şagirdlərin tərbiyəsiz hərəkətlərinin səbəbini birmənalı şəkildə ailələrdə görürəm. Uşaq ailənin güzgüsüdür"

**Müəllimin kəlamın**
**Al, saxla ehtiramın**
**Haqqdan edər təmənna**
**Məktəbinin davamın.**
**Ey gözüm, ey canım!**
**Get məktəbə, cavanım!**
**Nəsihət al, nəsihət,**
**Qıl kəsbi-elmə qeyrət!**
**Elmsizlik bəlası,**
**Müşkül olur, həqiqət.**
**Ey gözüm, ey canım!**
**Get məktəbə, cavanım!..**

Dahi Mirzə Ələkbər Sabirlə başladıq. Bəlkə məktəbin, müəllimin dəyərini anlada bilərik, ümidiylə. Demirik, cəmiyyətimizdə nadanlar çoxdur, anlamırlar. Çox deyilsə də, az da deyil, amma. Nədən bu fikirdəyik? Çünki hansısa məktəbdə şagirdlərin özbaşınalığı baş verəndə, bir çoxları müəllimi qamçılamağa başlayır: "Müəllim sinfi ələ ala bilmir", "özünə hörmət qoyan müəllimin dərsində şagird tərbiyəsizlik etməz", "əvvəldən uşağa üz verib, indi qarşısını ala bilmir" Daha düşünmürlər ki, axı hər kəs eyni xarakterdə deyil. Həlim xasiyyətli insan da var, sərt xasiyyətli də. Bütün müəllimlər də eyni ola bilməz. Amma di gəl ki, sərt müəllimlə qarşılaşdıqda, valideynlərin üzü dönür, müəllimləri nəinki təhqir edir, hədə-qorxu gəlir, az qalırlar əllərinə balta alıb müəllimin başını kötük üstə kəssinlər: "Uşağıma əl qaldıranı öldürərəm, asaram, kəsərəm", "müəllim kimdi uşağa əl qaldırsın?!", "uşağı böyütmüşəm ki, hər yoldan ötən onu vursun, döysün?!". Hirs-hikkələri sərhəd tanımır bəzilərinin. Birisi "uşağa evdə tərbiyə verin", deyəndə də sakitləşmək əvəzinə "bəs məktəb nə üçündü? Tərbiyə versinlər, öyrətsinlər" deyirlər. Bəli, məktəb təlim-tərbiyə, təhsil ocağıdır. Lakin bir uşaq məktəb yaşına qədər ailədə böyüyə hörmət etməyi öyrənməyibsə, böyüklərindən bunu görməyib, nümunə almayıbsa, o uşağın bu xüsusda tərbiyəsi əlbəttə çətin olacaq. Mümkünsüz deyil amma. Burada müəllim bacarığı, müəllim şəxsiyyəti də böyük əhəmiyyət daşıyır. Məsələlər bir-biriylə o qədər bağlıdır ki, bir situasiya digərini doğurur. İllər öncə təhsilə kurikulum sistemi gətirildi, ənənələr dağıdıldı, müəllimlərin bu sistemi öyrənməsinə uzun müddət lazım oldu. Birdən-birə təhsildə o qədər yeniliklər edildi ki, Avropa təhsil sisteminə oxşasın, məhz oxşasın deyə, hər şey alt-üst oldu. Dəfələrlə bu məsələ qaldırılır ki, müəllimlər yazı yazmaqdan dərs keçməyə vaxt tapmırlar. Sinif jurnalını doldur, sonra elektron jurnalı, şagirdlərin adlarını daxil elə, portalla işlə, yaz, yaz Tədris proqramından müəllimlər də narazıdır, valideynlər də. Valideynlər ibtidai sinfin proqramını anlamaqda çətinlik çəkir, nəinki yuxarı siniflərin. Ev tapşırıqları şagirdlər üçün kabusa çevrilib. Təhsil eksperti Kamran Əsədov ötən dəfə bildirib ki, kurikulum sistemində ev tapşırığı adda bir şey yoxdur. Yoxdursa, niyə şagirdlərə ev tapşırığı verilir? Çünki müəllim dərs saatı müddətində 3 işi - əvvəlki dərsi soruşmaq, yeni dərsi tədris etmək və yeni dərsin necə qavranıldığını şagirddən soruşmaq - icra edə bilmir. Buna zaman çatmır. Bəzən bunu sinifdə şagird sayının çoxluğu ilə əlaqələndirirlər. Sovet təhsil illərində də bir sinifdə 27-30, bəzən daha artıq şagird olurdu. Şərt deyil ki, keçilən dərs eyni gündə bütün sinifdən soruşulsun. Baxır dərsin məzmununa. Elə dərs ola bilər ki, məsələn, şeirin əzbər söylənməsidirsə, 2-3, hətta 4-5 şagird də lövhə önünə çıxa bilər. Digərlərindən növbəti dəfə dərs soruşular. Artıq dediyimiz kimi, tədris proqramı da o qədər qarmaqarışıq hala salınıb ki, müəllim dərs proqramını tərtib etməkdə çətinlik çəkir. Şagird sıxlığı əsas səbəb ola bilməz. Sovet məktəbliləri müəllimin qarşısında əxlaqsız, qeyri-etik hərəkətlər etmirdi, müəllimi təhqir etmirdilər. Ola bilər, hardasa, kimsə müəllimə qarşı kobud davranırdı, hətta söyüş də söyürdü, döyürdü də. Ancaq məşhur kəlam var - istisnalar qaydaları pozmur. Bir-iki hal ümumi məktəb mühitinin korlanmasına və müəllimə olan ictimai hörmətin azalmasına təsir etmirdi. Hazırda yaşlı və orta nəsli dindirsən, 90 faiz "bizim vaxtımızda müəllim müqəddəs idi, müəllim tənbeh edəndə, qorxaraq bunu valideynlərimizdən gizli saxlamağa çalışırdıq, çünki ata-anamızın daha sərt tənbeh edəcəyini "nə etmisən ki müəllim səndən narazı qalıb?!" deyəcəyini bilirdik. Müəllimin sözü qılınc kimi kəsərli idi. Valideynlər övladlarını "əti sənin, sümüyü mənim" prinsipi ilə məktəbə aparır, müəllimin öhdəsinə veriridlər. Bu yanaşmanı hazırkı valideynlər qəti qəbul etmir. Yuxarıda bu barədə yazmışıq artıq. Zamanın tələbləri dəyişə bilər, lakin bu, müəllim nüfuzunun sıfra düşməsinə əsas yaratmamalıydı. Təəssüf ki, əsas oldu. Təhsil sisteminin bərbad hala salınması sayəsində repetitorluq dərin kök atmağa başladı. Və məktəblərimizdə yaranmış eybəcər durumun əsas səbəblərindən biri də məhz budur. Şagirdlər məktəbdə, dərsin gedişində öyrənməli olduqları proqramı repetitor yanına getməklə əvəzləyirlər. Çünki bunu test imtahanları tələb edir. Tarixləri, adları əzbərləmək lazımdır, öyrənmək yox. Valideynlər də məhz buna görə müəllimin üzərinə iri addımlarla gəlir. Müəllimi təhqir etməkdən çəkinmirlər.

**Bunu "Şərq"ə açıqlamasında təhsil eksperti Elçin Əfəndi də təsdiqlədi. Ekspert müəllim nüfuzunun öləzimәkdə olmasının səbəblərini açıqladı:**

- Bu gün məktəblərdə şagirdlərin tərbiyəsiz hərəkətlərinin səbəbini birmənalı şəkildə ailələrdə görürəm. Uşaq ailənin güzgüsüdür. Uşaq ailədə nə görürsə, onu təkrar edir. Uşaq məktəbdə müəllimə hörmət qoymursa, müəllim qarşısında tərbiyəsiz hərəkətlər sərgiləyirsə, deməli evdə, öz ailəsində məhz bunları görüb. Ona bunu öyrədiblər. Şagird müəllimə qarşı əxlaqsız hərəkət edirsə, tərbiyəsiz davranırsa, onunla bağlı ölçü götürülməlidir. Bu kimi hallarda müəllimi qınamaq, müəllimin üzərinə yerimək, müəllimi işdən çıxarmaq, müəllimi günahkar bilmək absurddur. Və bu bizim cəmiyyətimizi fəlakətə aparır. Özünü apara bilməyən, bir neçə dəfə tənbeh edilsə də, davranışlarını düzəltməyən, islah olunmayan şagirdlər məktəbdən kənarlaşdırılmalı və belə şagirdlər çətin islah olunan uşaqlar üçün nəzərdə tutulan xüsusi məktəblərə yönləndirilməlidir. Bu cür məktəblərin də sayını artırmaq lazımdır. Məktəbdə baş verən hansısa xoşagəlməz hadisəyə görə ən son qınanan müəllim olmalıdır. Bu da müvafiq araşdırma aparıldıqdan sonra. Bilinməlidir ki, şagird niyə özünü qeyri-etik aparıb və müəllim hansı halda ona qarşı fiziki hərəkətlərə yol verib və ya tənbeh edib. Müəllim şagirdə qarşı sərt davrananda, müəllimi qınayırlar, təhqir edirlər, sakit əyləşəndə, şagirdə qarşı heç bir hərəkət etməyəndə yenə müəllimi təhqir edirlər ki, "əfəldir". Bəs müəllim necə davransın? Biz bütün hallarda müəllimi qorumalıyıq. Müəllim cəmiyyəti öyrədəndi. Mən istisnaları kənara qoyuram. Bəli, bu gün korrupsiyaya bulaşmış təhsil işçiləri, təhsilə rəhbərlik edənlər var. Onlarla qanun çərçivəsində davranılmalıdır. Lakin hansısa müəllimin səhv hərəkəti, qanun pozuntusuna yol verməsi, kiməsə əsas vermir ki, bütün müəllim kontingentini təhqir etsin. Müəllimə hörmətsizlik edən cəmiyyət məhvə məhkumdur. Elm və Təhsil Nazirliyi də, regional təhsil idarələri də təhsilimizin bugünkü ağır durumdan çıxarılması istiqamətində əsaslı iş aparmalıdırlar. Bu, bir-iki tədbirlə, konfransla başa gələsi məsələ deyil. Əsaslı, planlı iş aparılmalı, müəllim nüfuzunun yüksəldilməsinə nail olunmalıdır. Fikir versək görərik ki, müəllimə qarşı tərbiyəsiz hərəkətlər adətən 7-ci sinifdən başlayır, uşaqlar 12-13 yaşına çatdıqda və yuxarı siniflərədək. Deməli, 12-13 yaşlı uşaqlarla məktəbdə tərbiyəvi söhbətlərin aparılmasına daha ciddi yanaşılmalıdır. Bu, uşaqların yaş həddində keçid dövrlərindən biridir və bu yaşlarda uşaqların təlim-tərbiyəsinə xüsusi fikir verilməlidir.

**E.Əfəndi qeyd etdi ki, repetitorluq fəaliyyətinin genişlənməsi, müəllimin nüfuzunun zəifləməsinin səbəblərindən biridir:**

- Əlbəttə, bu da bir səbəbdir. Bir sinifdə 25 şagird təhsil alırsa, onun 20-si repetitor qəbuluna gedir. Və bunu buraxılış və qəbul imtahanlarına hazırlıqla əlaqələndirirlər. Müəllim niyə repetitorluq edir, çünki aldığı əməkhaqqı tələbatların ödənməsinə yetmir. Əlavə qazanc mənbəyi axtarmaq zorundadır. Bununla da müəllim şagird və valideyn qarşısında gözükölgəli vəziyyətə düşür. Şagird müəllimin üzünə qayıdır ki, "atamın puluyla dolanırsan". Bu gün Azərbaycan müəllimi şagirddən asılı vəziyyətdədir, ona görə də müəllim nüfuzu öləziyib. Bir-biriylə bağlı olan bütün bu problemlər də qarşımızdakı bu mənzərəni ortaya çıxarıb.

**Məlahət Rzayeva**

# Anar Kərimovun nazir kimi vəzifədə qalması doğru olmazdı

## Aydınxan Əbilov: "Azərbaycanın mədəniyyət naziri sarıdan bəxti heç gətirməyib"



**Prezident İlham Əliyevin sərəncamı ilə mədəniyyət naziri Anar Kərimov vəzifəsindən azad edilib.**

**Bu vəzifəyə təyin olunmasından heç iki il keçməmiş Anar Kərimovun işdən çıxarılması bir çox suallar yaradıb.**

Azərbaycanda aparılan kadr islahatları fonunda - 2021-ci il yanvar ayının 5-də Anar Kərimovun mədəniyyət naziri vəzifəsinə təyinatı cəmiyyətimizdə müəyyən ümidlər yaratmışdı. Təəssüf ki, o, bu ümidləri və ona göstərilən etimadı doğrulda bilmədi.

Qısa zaman kəsiyində nazir işləməsinə baxmayaraq, hərəkətləri ilə sənət adamlarının narazılığına səbəb olan nazirin hətta əsas yoxlanmalı yerləri qoyub Azərbaycan Dövlət Kukla Teatrı kimi bir mədəniyyət ocağında yeyinti axtarması gülüşlə qarşılanmışdı.

Qeyd edək ki, Prezident İlham Əliyev Adil Kərimlinin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası da Adil Kərimliyə həvalə edilib.

Adil Kərimli bu təyinata qədər Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini vəzifəsində çalışıb. 2012-ci ildən bu vəzifədə çalışan Adil Kərimli "Milan Ekspo", "Dubay Ekspo" və digər beynəlxalq tədbirlərdə mədəniyyət bölümünə rəhbərlik edib, Moskva şəhərində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki Azərbaycan pavilyonunun Təşkilat Komitəsinin rəhbəri olub.

Həmçinin Heydər Əliyev Fondunun işğaldan azad edilən ərazilərdəki bərpa-quruculuq layihələri, Fondun bir sıra ölkələrdə təşkil etdiyi Azərbaycan mədəniyyəti günləri üzrə İşçi qrupunun üzvu olub. Heydər Əliyev Fondunun Almaniya, Böyük Britaniya, İtaliya və Fransadakı mədəniyyət layihələrinin kuratoru kimi çalışıb. "Eurovision" mahnı müsabiqəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri olub, 2012-ci ildə Bakının bu mahnı müsabiqəsinə ev sahibliyi etdiyi zaman isə müsabiqəyə hazırlıq üzrə İşçi qrupunun rəhbəri kimi çalışıb. Həmin dövrdə Avropa Yayımları Birliyinin hüquq və ictimai işlər komitəsinin üzvü olub. 1979-cu il təvəllüdlüdür, 1999-cu ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bakalavr, 2001-ci ildə isə magistr elmi dərəcəsində bitirib, hüquq üzrə fəlsəfə doktorudur.

**Mədəniyyət Nazirliyində gedən prosesləri dəyərləndirən Yeni Yazarlar və Sənətçilər Birliyinin sədri, analitik-ekspert, yazıçı-kulturoloq Aydınxan Əbilov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanın mədəniyyət naziri sarıdan bəxti heç gətirməyib. Mədəniyyət sahəsinə rəhbərlik edən şəxslər dəyişdirilsə də, bu sahədə mövcud olan heç bir problem həll olunmur**: "Halbuki Azərbaycan dünyada öz mədəniyyəti ilə tanınan xalqlardandır. Bu gün necə ki yəhudi deyiləndə ağıla intellektli bir xalq gəlirsə, azərbaycanlı adı keçəndə də mədəni bir xalq gəlir. Amma nazirlik rəsmiləri bunun əhəmiyyətini və mahiyyətini anlamaq istəmir. Ölkə rəhbərliyi səviyyəsində bu sahəyə çox ciddi önəm və dəstək verilir. Lakin rəhbərliyə təyin olunan şəxslərin heç biri ölkə başçısının etimadını doğrulda bilmir. Ölkə ictimaiyyətinin yeni kadrlara olan etimadına kölgə salan Anar Kərimov sələfinin dövründə nazirlikdə həyata keçirilən həbslərdən nəticə çıxarmalı idi. O isə gələn kimi peşəkar kadrları işdən azad edib. Onların yerinə isə bu sahədə heç bir təcrübə və qabiliyyəti olmayan şəxsləri təyin etməyə başladı. Onun mədəniyyət sahəsinə rəhbərlik etdiyi iki il ərzində nazirlikdə idarəetmənin keyfiyyəti daha da aşağı düşdü. Və bu səbəbdən ölkənin mədəniyyət sektoru dərin bir boşluq içərisindədir. Nazirliklə bağlı çox ciddi narazılıqlar var. Muzeylərdən belə oğurluqlar olur. Lənkəranda aparılan qazıntı zamanı tapılan alətləri gətirib Hacıqabulda muzeyə qoyurdular. Bu cür dəhşətli faktlar fonunda Anar Kərimovun nazir olaraq qalması doğru olmazdı. Bölgələrdəki mədəniyyət evlərinin fəaliyyətində çox ciddi nöqsanlar var".

> "Ölkə rəhbərliyi səviyyəsində bu sahəyə çox ciddi önəm və dəstək verilir. Lakin rəhbərliyə təyin olunan şəxslərin heç biri ölkə başçısının etimadını doğrulda bilmir"

Ötən ayın əvvəlində DTX-nin Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyatı xatırladan kulturoloq deyib ki, nazirin birinci müavini və digər vəzifəli şəxslər həbs edildi. Bu hadisə ictimaiyyətin gündəmindən düşməmiş nazirlik daha bir biabırçılığa imza atdı. Söhbət Kukla Teatrındakı yoxlamalar və illik planın 50 faiz artırılmasından gedir. Nazir müavininin qiymət artımı ilə bağlı tələbini teatrın direktoru rədd edib deyə, o boyda nazirlik işini-gücünü buraxıb tələm-tələsik yaratdığı komissiyanı Kukla Teatrının işini yoxlamağa göndərdi: "Bütün bunlar isə birbaşa Mədəniyyət naziri Anar Kərimovun yarıtmaz iş prinsipini nümayiş etdirirdi.

Mədəniyyət Nazirliyinin təşkil etdiyi tədbirlər, nəzdindəki İctimai Şuranın fəaliyyətsizliyi, kitabxanaların məhv edilməsi, elektron resurslarımızla bağlı ortaya çıxan problem hər zaman aktualdır. Kinoteatrlarımızda, muzeylərimizdə, teatrlarımızda, mədəniyyət ocaqlarımızda çox dəhşətli hallar mövcuddur.

Biz illərdir bu problemlərin həllini tələb etsək də, heç bir nazirlik rəsmisi səsimizə səs vermədi. Ümid edirəm ki, növbəti təyinatı uğurlu olacaq. Hazırda nazirliyin səlahiyyətlərini icra edən Adil Kərimovun mövcud problemlərin həllində maraqlı olacağını gözləyirik. Anar Kərimovun vəzifədən çıxarılması isə yüksək etimad göstərilən digər məmurlar üçün örnək olmalıdır. Təəssüflər olsun ki, bir neçə dövlət qurumuna rəhbər təyin edilən gənclər təmsil etdikləri qurumun məsuliyyətini dərk edə, ölkə başçısı tərəfindən onlara yaradılan şəraiti, göstərilən etimadı doğrulda bilmədilər".

**Şəymən Bayramova**



## AZAL endirimli biletləri satışa çıxardı, sistem çökdü

**Dünən AZAL 2023-cü ilin yay cədvəli çərçivəsində 9 istiqamət üzrə 29 avroya aviabiletlərin satışa çıxarılacağını elan edib.**

Bu barədə şirkətin sosial şəbəkə hesablarında və rəsmi saytında məlumat paylaşılıb. Bildirilib ki, martın 26-dan oktyabrın 29-dək olacaq uçuşların hava yollarının aşağıbüdcəli "Buta Airways" aviaşirkəti tərəfindən minimal "Büdcə" tarifi ilə həyata keçiriləcək və 10 000 biletin onlayn satışı planlaşdırılacaq.

Bu gün (dünən) saat 16:00-da biletlər satışa çıxarılmalı olsa da, qeyd olunan saatdan hətta bir neçə dəqiqə əvvəldən etibarən saytın onlayn satış bölməsi işləməyib. Bu barədə vətəndaşlar sosial şəbəkədə yazıblar. Qeyd olunub ki, biletlərin satışa çıxarılacağı vaxtdan bir saatdan çox keçsə də, saytdan bilet almaq qeyri-mümkündür.

*Qeyd edək ki, sözügedən təklif Ankara, İzmir, İstanbul (Sabiha Gökçen Hava Limanı), Tbilisi, Aktau, Həştərxan, Mineralnıye Vodı, Kazan və Ufa şəhəri üzrə keçərlidir. Biletə əl yükü və baqaj daxil deyil.*

## Xalq artisti ilə vida mərasimi keçirildi



**"Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının yaradıcısı, Xalq artisti Fikrət Verdiyev vəfat edib.**

Axşam.az xəbər verir ki, sənətçi ilə vida mərasimi Təzə Pir məscidində keçirilib. Xalq artisti ilə vida mərasiminə sənət adamları, ictimai xadimlər qatılıblar.

Fikrət Verdiyev Qurd qapısı qəbiristanlığında dəfn olunub.

**Elan**

Yusifzadə Elmar Elçin oğlunun adına 2018-ci ildə Xətai rayon Hərbi Komisarlığı tərəfindən verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Salahova Səkinə Hidayət qızına məxsus Kapital bank, Paşa bank və Leobank kartları itdiyi üçün etibarsız sayılır.

# DİM DİN-ə qarışmasın!

## "Məleykə Abbaszadə imtahan prosesindəki problemlərlə məşğul olsun"

> "Sürücülük məsələsi yol hərəkəti təhlükəsizliyinin əsas predmetindən biridir və yol polisi də bunun öhdəsindən uğurla gəlir"

**Müraciət olarsa, sürücülük imtahanlarını keçirə bilərik".**

**Bunu APA-ya açıqlamasında Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O qeyd edib ki, biliklərin yoxlanılmasında hansısa formatda prosesə qoşula bilərlər:**

"Lakin təbii ki, real sürücülük qabiliyyətini yoxlaya bilmərik. Yeni imtahan mərkəzində bunun üçün imkanımız olacaq. Biz hansısa imtahanı keçirmək üçün heç kimlə danışıq aparmırıq. Hökumət nə sifariş verirsə, onu yerinə yetiririk".

**Məsələyə münasibət bildirən Avtosfer.az saytının baş redaktoru, nəqliyyat eksperti Elməddin Muradlı "Şərq"ə bildirib ki, bu təklif son 10 il ərzində müxtəlif insanlar tərəfindən dəfələrlə səsləndirilib:** "İlk dəfədir ki, DİM-in sədri bu məsələyə münasibət bildirərək "Biz bunu edə bilərik" deyir. Amma açıqlama dünən sosial şəbəkələrdə də müzakirə olundu və praktik cəhətdən mümkünsüz olduğu üzə çıxdı. İnsanların sözlərinə görə, tələbə qəbulu ilə bağlı kifayət qədər qüsurlar var. Yaxşı olar ki, Məleykə Abbaszadə onlarla məşğul olsun.



Sürücülük məsələsi isə yol hərəkəti təhlükəsizliyinin əsas predmetindən biridir və yol polisi də bunun öhdəsindən uğurla gəlir. Düzdür, razılaşmaq lazımdır ki, sürücülük imtahanı ilə bağlı müəyyən təkmilləşdirmə işlərinə ehtiyac var.

Bu həm də Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş yol hərəkəti təhlükəsizliyinə dair 2019-2023-cü illəri əhatə edən dövlət proqramında da öz əksini tapıb. İmtahanı daha şəffaf şəkildə keçirmək üçün nəticələr sürücüyə deyilsə, ona səhvləri bildirilsə, işlək olmayan suallar praktiki suallarla əvəzlənsə, daha yaxşı olar.

Ümumiyyətlə, nəzəri imtahanı bir qurum, praktiki imtahanı isə digər qurumun tədbiq etməsi gülüncdür. Hətta Məleykə xanımın özü də texniki avadanlıqlarının və meydançalarının olmadığını etiraf edib. Bu səbəblə DİM-in öz problemlərini yoluna qoyduqdan sonra təşəbbüs irəli sürməsi daha yaxşı olar. Çünki hərbi xidmətdə olan ali təhsillilərin yetəri qədər problemi var.

Onların bəziləri hətta diplomu vaxtında təqdim edə bilmədikləri üçün əlavə 6 ay xidmət etmək məcburiyyətində qalır. Yaxşı olar ki, DİM imtahanı hazırladıqdan sonra da Elm və Təhsil Nazirliyi ilə birlikdə işlər görsün və insanların problemlərini həll etsin".

**Nihat Müzəffər**

# Hacı Əbdül sərt danışdı

## "Hazırda müğənnilərimizin çoxuna da "həcilər" və bəzi məmurlar sponsorluq edir"

**Müğənni Dəniz Əsədova sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə dindirilib. Bu barədə müğənni özü məlumat verib.**



O qeyd edib ki, saxta əlillik düzəltmək adı ilə vətəndaşlardan pul alınması faktı üzrə istintaqın suallarını cavablandırıb:

"Heç bir günahım olmadan Səlim Müslümovun işinə görə məni istintaqa cəlb elədilər. Məni dələduzluqda ittiham edirdilər. Halbuki əlimdə sübutlarım da var idi ki, işi görən Mehparə, Rauf, Rüfət, Şahin və Eldəniz adlı həkimlər olub. Bildirdim ki, mənə qarşı ittihamlar yalan və böhtandır. Adını çəkdiyim həkimlər tanıdığım adamlardan pul alıblar".

Göründüyü kimi müğənni özü hadisələrin içində olduğunu etiraf edir. Həm aldadılanları, həm də aldanılanları yaxından tanıdığını gizlətmir. Bununla belə o özünü günahkar saymır.

Günümüzün acı reallığı budur ki, şou əhlinin bəzi strukturlara nüfuz etməsi, bəzi qapıları "təpiklə açması" heç kimə sirr deyil. Ona görə də müğənni Dənizin də belə bir qalmaqalda adının hallanmasında qəribə heç nə yoxdur.

**Bizim.media bildirir ki, məsələyə münasibət bildirən Xalq artisti Əbdül Mahmudov bildirdi ki, bu gün istənilən gözəl xanım müğənni ola bilir:**

"Bunun üçünsə sənət, səs yox, sponsor lazımdır. Çox təəssüf ki, hazırda müğənnilərimizin çoxuna da "həcilər" və bəzi məmurlar sponsorluq edir. Elə adı çəkilən müğənni Dəniz də onlardan biridir. Adama deyərlər ki, sən hara, Səlim Müslümov hara?! Sən hara əlillik düzəltmək hara?! Deməli, ona bu səlahiyyəti verənlər olub ki, bu da ortalığa düşüb iş düzəldirmiş də... 50 ilin yaradıcı adamıyam. Mənim niyə adım belə qalmqallarda hallanmır? Məni niyə məhkəmələrə çağırmırlar? Atalar demiş: "Od olmasa, tüstü olmaz". Deməli, həmin müğənni hansısa qanunazidd hərəkət edib ki, 3 ildir məhkəmlərə gedib gəlir".

Xalq artisti onu da əlavə etdi ki, bütün bunların günahı cəmiyyətimizdədir:

"Bəzən adama elə gəlir ki, cəmiyyəti qanunlar deyil, şou əhli idarə edir. Hamı onlara oxşamağa çalışır. Yerindən duran müğənni olmaq istəyir. Əlinə 5-10 manat pul düşəndə başlayır həmin müğənnilərə sponsorluq etməyə. Həmin sponsorların pulu və zəngi ilə müğənnilər təkcə iş düzəltmirlər, həm də bütün efirləri zəbt edirlər. Və o efirlərdən də bizə mənəviyyat dərsi keçirlər".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3737



## Mərakeş kralı milli komanda təmsilçilərinə krallıq nişanı verdi

**Mərakeşin xəbər agentliyində yayımlanan məlumata görə, Kral 6-cı Məhəmməd Mərakeş millisinin futbolçularını Rabatdakı Kral sarayında qonaq edib.**

"Şərq" xəbər verir ki, Mərakeş kralı bütün milli komanda təmsilçilərinə krallıq nişanının verilməsinə qərar verib.

Qeyd edək ki, tarixdə ilk dəfə Dünya Çempionatında 4-cü olan Mərakeş milli komandası ölkədə coşqu ilə qarşılanıb. Paytaxt Rabatda milli forma geyinərək Mərakeş bayrağı dalğalandıran minlərlə insan Qətərdən qayıdan komandanı böyük sevinc hissi ilə qarşılamışdı.

**Nihat**

## Qripə yoluxma riskini 100 dəfə aşağı salan sirr tapıldı



**Həkim allerqoloq qripə yoluxmamağın sirrini açıqlayıb. Əgər insanlar qripin aktiv aylarında maska taxsalar, bu yoluxmanı 100 dəfə azaldar.**

Bakupost.az xəbər verir ki, bu barədə immunoloq Vladimir Bolibok deyib.

"Əgər insan sağlamdırsa və qrip vaksini vurdurmayıbsa, maska taxdıqda, 20 dəfə risk azalır.

Əgər qripə yoluxmuş şəxs maska geysə, ətrafdakıları 5 dəfə az yoluxdurmuş olar.

Üstəlik həm yoluxanın, həm sağlamın ağız, burnunu maska örtərsə, yoluxma 100 dəfə düşür. Necə ki, koviddən qorunmağın yolu maska idisə, qripdə də eynidir.

Qrip epidemiyasında hər kəs maska taxmalıdır. Hazırda Rusiyada H1N1 donuz qripi də yayılır, ona görə maska vacibdir".





# Ailələrə xəbərdarlıq

## Gənclərin narkotik və seksual həyat üçün istifadə etdiyi emojilər ifşa olundu

**Mütəxəssislər gənclər arasında narkotik istifadəsi və seksuallığı ifadə etmək üçün istifadə edilən emojiləri dərc edərək, ailələrdən bu məsələdə diqqətli olmalarını xahiş ediblər. Gənclərin qaranlıq dünyasını və mənalarını ortaya qoyan emojiləri təqdim edirik...**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Böyük Britaniyada Surrey polisinin valideynləri və müəllimləri gənclərin narkotik və seksuallıq ilə bağlı istifadə etdikləri müxtəlif emoji nümunələri ilə bağlı xəbərdarlıq ediblər.

Gənclərin ailələrinə yaxalanmamaq üçün mesajlaşma proqramlarında emojilərlə yaradılan gizli kodlara müraciət etdiklərini bildirən səlahiyyətlilər, bu cür məxfiliyin onları narkotik kimi zərərli vərdişlərə sürükləyə biləcəyinə diqqət çəkiblər. Polis həmçinin xəbərdarlıq edib ki, emoji dilini mükəmməl bilən narkotik alverçiləri yeniyetmələrə daha asan təsir edə bilirlər.

Surrey polisi valideynlər və müəllimlər arasında emojilər haqqında məlumatlılığı artırmaq üçün gənclər arasında tez-tez istifadə olunan ifadələrin və onların mənalarının qrafikini yayımlayıb.

Qrafikdə tiryəki təmsil edən 4 yarpaqlı yonca da daxil olmaqla 14 müxtəlif emoji var. Tiryəkləri təsvir etmək üçün istifadə edilən digər emojilərə müxtəlif yarpaq emojiləri, limon, üzüm, qarpız, albalı, çiyələk, ananas, tort dondurması və it emojiləri daxildir.

Ketamin və azot oksidi at və şar emojiləri ilə təsvir edilib.



Surrey polisi qeyd edib ki, yeniyetmələr emojilərdən narkotikləri təsvir etmək və narkotiki necə qəbul etməyi izah etmək üçün istifadə edirlər. Müvafiq olaraq, həb emojisi dərmanın şifahi olaraq qəbul ediləcəyini, şprisin isə damara yeridiləcəyini bildirir.

Həmçinin narkotik satıcıları özləri üçün göz, səkkiz top və ya yuva emojilərinə üstünlük verirlər.

Surrey polisi gənclər arasında emoji istifadəsindən təkcə narkotik istifadəsini gizlətmək üçün deyil, həm də seksuallığı təsvir etmək üçün istifadə edib. Buna uyğun olaraq gənclər alça, badımcan, şaftalı və sıçrayan emojilərdən cinsiyyətlərini ifadə etmək üçün istifadə edirlər.

Digər tərəfdən səlahiyyətlilər bu cür emojilərdən istifadə edən hər gəncin cinayət törətmədiyini bildirib və ailələrə övladlarına təzyiq göstərməmələri barədə xəbərdarlıq edib. Polis valideynlərə mesajlarını qarışdırmaqdansa, uşaqları ilə danışmağı, onların əhvali-ruhiyyəsini və dərsdəki irəliləyişlərini izləməyi tövsiyə edib.

**Turan**

## Onlar da ayrıldı



**Türkiyəli aktrisa Sinəm Ünsalla həmkarı Halit Özgür ayrılıb.**

Axşam.az xəbər verir ki, cütlük fikir ayrılığı səbəbindən münasibətlərini sonlandırıb.

*Qeyd edək ki, Sinem və Halit "Gizli saklı" serialında birgə rol aldıqdan sonra eşq yaşamağa başlamışdı.*

## Britni Spirs ölməyib, yaşayır



**Dünya pop səhnəsinin ulduzu Britni Spirs ölüm xəbəri yalan çıxıb.**

Bizim.media xəbər verir ki, 41 yaşlı sənətçi Nyu-Yorka səyahət etdiyini açıqlayıb. Lakin onu orada heç kimin görməyib.Hətta paparazzilərin bir kadr belə çəkməyə nail ola bilməyib. Britney Spirs itkin nə itkin düşüb, nə də ki ölüb, əksinə, o, heç vaxt olmadığı kimi yaşayır. Nəşrin mənbələrinə görə, Spirsin ölməsi ilə bağlı iddialar da əsassızdır.

TMZ-nin əldə etdiyi məlumatına görə, Britni, əri Sem Əsgəri ilə Meksikada istirahət edir. O mətbuatın diqqətini özündən yayındırmaq üçün yolunu dəyişərək qaçmağa nail olub.

## Nüsrətin istəyi başına bəla oldu



**Duztökmə hərəkətiylə dünyada "Salt Bae" kimi tanınan türkiyəli aşpaz Nüsrət Gökçe dünya çempionatında Messiylə və kubokla foto çəkdirmək istəyi uzun müddət gündəmi zəbt etmişdi.**

Axşam.az xəbər verir ki, o, bu hərəkətləriylə futbol sevərlərin etirazını üzərinə çəkib.

"U.S. Open Cup" davranışlarına görə aşpaza finala qatılmasına icazə verməyəcəklərini açıqlayıb. Onlar bu barədə məlumatı sosial şəbəkədə verib.

Qeyd edək ki, həmin an komanda yoldaşlarıyla sevincini bölüşən oyunçu aşpazla şəkil çəkdirmək istəmirdi.



# Media onlardan yazdı

## Leonardo Di Kaprio 23 yaşlı Viktoriya Lamasla görüntülənib

**Dünya şöhrətli aktyor Leonardo Di Kaprio model Gigi Hadidlə sevgili olduğu iddialarına baxmayaraq, ötən gecə aktrisa Viktoriya Lamasla görüntülənib.**

Beş ildir sevgili olduğu Camila Morrone ilə gözəl modeldən 22 yaş böyük amerikalı aktyor Leonardo Di Kaprionun son bir neçə həftədə yollarını ayırdığı məlum olub. Məşhur ada yaxın olan şəxslər Leo və Camilanın son zamanlar bir-birindən uzaqlaşdığını bildiriblər.

Ayrılıq Hollivud ulduzunun 25 yaşından yuxarı bir qadınla heç vaxt açıq şəkildə görüşmədiyi barədə şayiələri də artırdı. Ayrılıqdan sonra sosial şəbəkə istifadəçiləri "Oskar"lı aktyorun 25 yaşından yuxarı qadınlarla sevgisi olmadığını iddia etsə də, Leonardo Di Kaprionun 27 yaşlı supermodel Gigi Hadidlə romantik münasibətdə olduğu iddia edilib.

Digər tərəfdən, InTouch, Di Kaprio və Hadidin yayda bir neçə dəfə görüşdüyünü, lakin son aylarda ciddi münasibətdə olmadığını bildirib. "Gigi və Leonardo bir neçə il əvvəl tanış olublar və bir-birilərini cəlb ediblər. Gigi sadəcə onun tipidir; qəşəng və seksualdır", - mənbədən biri jurnala bildirib. Lakin digər mənbə cütlüyün sadəcə dost olduğunu bildirib.

Bu söz-söhbətlərdən sonra Di Kaprio və Hadid Nyu-Yorkda bir partidə yaxınlaşarkən görüntülənib. Səs-küylü məclisin ortasında söhbət etməyə çalışan cütlük bir-birinə əyilmiş halda çəkilib.

Bu, Hollivud ulduzunun ilk dəfə 25 yaşdan yuxarı qadınla eşq münasibəti yaşaması kimi mətbuatda əksini tapıb. Bundan başqa, adı birlikdə çəkilən qadınlar arasında övladı olan yeganə şəxs Gigi Hadid olub.



Bütün bunlardan sonra 48 yaşlı Leonardo Di Kaprio, supermodel Gigi Hadidlə eşq yaşadığına dair fərziyyələrə baxmayaraq, 23 yaşlı aktrisa Viktoriya Lamas ilə səmimi şəkildə söhbət edib.

"DailyMail"də yer alan xəbərə görə; "The Birds Street Club"dan ayrı çıxan cütlük birlikdə maşına minərkən Di Kaprionun gülümsəməsi diqqət çəkib.

Hollivud ulduzuna yaxın bir mənbə, Leo və Viktoriyanın birlikdə olmadığını təkid edir; "Bu, çoxlu insanların olduğu bir qrup şam yeməyi idi. Onlar maşında tək deyildilər", - deyə izah edib.

**Turan**

## 12 il davam edən araşdırma...

### Televizora çox baxmaq xroniki ağrıları artırır

**Hər gün televizor və kompüterdə izləmə müddətinin artırılması müəyyən dərəcədə xroniki ağrıları artırır.**



Bakupost.az xəbər verir ki, bu nəticəyə Beyker adına ürək və diabet institutunun alimləri gəlib.

Onlar AusDiab-ın ən nəhəng elmi tədqiqatını əsas götürüblər.

12 il davam edən araşdırmada 4000 nəfər ildə bir neçə dəfə xroniki ağrı üzrə bal şkalası qiymətləndirilməsindən keçiblər.

Nəticələr göstərib ki, 50 yaşdan sonra xroniki ağrılar hər il 0,3 % azalır. Amma yaşlıların televizor qarşısında keçirdikləri hər 1 saat artıq vaxt ağrıları 0,7% artırıb.

II tip diabeti və ürək xəstəliyi olanlarda bu ağrılar daha da qabarıq olur.

Bütün bunlar oturaq həyat tərzi ilə bağlıdır. Xəstəliklərin profilaktikası üçün fiziki aktivlik lazımdır, televizor qarşısında çox vaxt keçirmək olmaz.

## Xəyanət iddialarından sonra indi də onunla sevgilidir

**Türkiyəli aktrisa İlayda Alişanla həmkarı Alp Navruzun eşq yaşadığı iddia edilib.**



Axşam.az xəbər verir ki, Etilerdə məclislərin birində əylənən cütlüyün səmimi görüntüləndiyi, rəqs etdiyi bildirilib.

*Qeyd edək ki, Alp daha əvvəlk aktrisa Ayşa Ayşin Turanla sevgili idi və ikili 1 il yarımdan sonra aktyorun ona xəyanət etməsi iddialarından sonra ayrılmışdı. Onun bir müddət əvvəl həmkarı Hazal Subaşıyla sevgili olduğu da deyilirdi.*

## Safurə ailəsiylə Bakıya gəldi

**"Avroviziya" təmsilçilərimizdən olan Safurə Əliyeva ailəsi ilə birlikdə Bakıya gəlib.**



Axşam.az xəbər verir ki, İstanbulda yaşayan müğənni təyyarədə həyat yoldaşı Fərhad Əliyev və övladlarıyla çəkilən fotolarını sosial şəbəkədə paylaşıb.

*Qeyd edək ki, Fərhad Əliyev keçmiş energetika naziri, mərhum Natiq Əliyevin oğludur. Cütlüyün 3 övladı var.*